

Milli azadlıqdan
şirin nemət yoxdur!

# "Bu gün mən Milli Məclisə təklif verdim..."

## Parlament qəbul etdi

### Milli Məclisin 24 fevral 1994-cü il 791 №-li qərarı




Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
22 fevral 2025-ci il, şənbə
№ 033 (6861)
Qiyməti 60 qəpik

# Sülhə gedən yolun əvvəli...



Bax səh. 3

# 3 qardaş ölkənin "yaşıl enerji" dəhlizi

## Azərbaycan, Qazaxıstan və Özbəkistanın əsasını qoyduğu yeni layihə Şərq-Qərb "yaşıl dəhlizi"ni formalaşdıracaq

Bax səh. 2

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

Bax səh. 4

## Qərar qanunlar əsasında verilib

BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinin dayandırılmasını müəyyən dairələr siyasiləşdirməyə çalışır. "BBC News" yaydığı bəyanatda iddia edib ki, Azərbaycan Xarici İşlər Nazirliyindən şifahi göstəriş aldıqdan sonra ölkədə ofisini bağlamaqla bağlı "könülsüz qərar" qəbul edib. BBC əsassız olaraq bunu "mətbuat azadlığına qarşı məhdudlaşdırıcı addım" sayıb. "Bu addım bizim ölkə daxilində və xaricindəki auditoriyalarımız üçün Azərbaycana və Azərbaycandan xəbər verməyimizə əngəl törədəcək. Hər həftə təxminən 1 milyon insan BBC News Azərbaycancadan etibarlı qərəzsiz xəbərlər alır. Biz Azərbaycan hökuməti ilə əlaqə saxlayırıq ki, onların göstərişinə aydınlıq gətirək və vəziyyəti həll etməyə çalışaq", -deyə bəyanatda bildirilib.

**XİN: Qəbuledilməzdir!**

Azərbaycanın Xarici İşlər Nazirliyi isə məsələyə münasibətdə mövzuya aydınlıq gətirib. Belə ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualını cavablandırıb. A.Hacızadə bununla bağlı deyib: "BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi məsələsinin siyasiləşdirilməsi, məsələnin mahiyyətinin BBC tərəfindən təhrif olunması, ümumilikdə ikili standartlar yanaşması nəzərə alınaraq media azadlığı məsələsinə dair ölkəmizə qarşı BBC-nin açıqlaması təəssüf doğurur və qəbuledilməzdir".

**Fevralın 13-də keçirilən görüşdə...**

Onun sözlərinə görə, BBC-nin ölkəmizdəki nümayəndəliyinin bağlanması ilə bağlı qərar müvafiq şəkildə fevralın 13-də Xarici İşlər Nazirliyi tərəfindən BBC-nin ölkəmizdəki nümayəndələri ilə görüş zamanı rəsmi şəkildə çatdırılıb və mövqeyimiz qarşı tərəfə...

Bax səh. 4

## Azad ərazilər turizmin cəlbedici ünvanına çevrilir



Bax səh. 2

## Təminatlı iş yeri, layiqli əməkhaqqı...

Bax səh. 5

## 350 milyard nəyə, necə, nə zaman xərcləndi?

Bax səh. 6

## Avropa İttifaqı narahatdır...

Bax səh. 6

## Sülh, yoxsa müharibə?

Bax səh. 4

## Dünyanın ən böyük "düşməni"...

Bax səh. 7

## Milli maraqlarımızın müdafiəsi...

İctimai və dövlət maraqları müdafiə olunmasa, ölkənin suverenliyi və təhlükəsizliyi təhdid altına düşmüş olar. Bu maraqlarının qorunması hər bir cəmiyyətin başlıca məqsədlərindən biridir. Çünki hər iki amil bütöv bir toplum üçün həyati əhəmiyyət kəsb edir. Bu baxımdan, ictimai və dövlət maraqlarının müdafiəsi məsələləri daim aktuallığını qoruyur.

Dövlət maraqlarının, ictimai və milli maraqların təmin olunması məsələsi bizim üçün hər zaman ən qabaqcıl yerdə dayanır. Daha dəqiq desək, Azərbaycanda bu məsələ həmişə olduğu kimi, indi də prioritetdir. Onu da unutmaq lazım deyil ki, milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini özündə birləşdirir. Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, formalaşmış bir cəmiyyətdir.

**İdeal cəmiyyətin formalaşması üçün...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov bildirib ki, ölkəmiz bəşəri və milli dəyərləri nəzərə alan, qoruyan və geniş miqyasda təbliğ edən ölkədir: "Xalqımızın dəyərləri, insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatları ictimai və milli maraqlar məcmusudur. Azərbaycan cəmiyyəti yetkin bir cəmiyyətdir, ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edir, eləcə də bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacarır. Məhz ideal cəmiyyətin formalaşması üçün həm dövlətin mənafeyinə zərər gəlməməsi, həm ictimai maraqların təmin edilməsi, həm də ortaq maraqların müəyyənləşdirilməsi tələb olunur. Ölkəmizdə hər kəs belə bir mühitin formalaşdığının şahididir"...

Bax səh. 4



## ABŞ BMT-ni tərk edir?

Bax səh. 5

## QHT sektoruna nəzarət gücləndirilir...

### Gürcüstan Parlamenti "Qrantlar haqqında" qanunu sərtləşdirir

Bax səh. 7



## Ukrayna prezident seçkilərinə gedəcək?

Bax səh. 6

# Strateji müttəfiqlik münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

## İlham Əliyev Hulusi Akarı qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olundu.

Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında



## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 fevral 2025-ci il*

# 3 qardaş ölkənin "yaşıl enerji" dəhlizi

## Azərbaycan, Qazaxıstan və Özbəkistanın əsasını qoyduğu yeni layihə Şərq-Qərb "yaşıl dəhlizi"ni formalaşdıracaq

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i təsdiq edib. Xatırladaq ki, 2024-cü il noyabrın 13-də Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı iqtisadi sahədə əməkdaşlığın daha da artırılması, bərpaolunan enerji üzrə birgə layihələrin həyata keçirilməsinə dair aparılan danışıqların nəticəsi olaraq strateji tərəfdaşlıq sazişi imzalanıb. Azərbaycanın dövlət başçısının sazişi təsdiqləməsindən sonra 3 qardaş ölkənin yeni enerji layihəsi hüquqi-iqtisadi baxımdan həlledici mərhələyə qədəm qoymuş olacaq.**

### Qazaxıstan və Özbəkistanın bərpaolunan enerji gücü

Azərbaycan, Qazaxıstan və Özbəkistanın əsasını qoyduğu layihə Şərq-Qərb "yaşıl enerji" dəhlizinin formalaşdırılması deməkdir. Layihə Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqlini nəzərdə tutur. Bu layihə beynəlxalq əhəmiyyətli enerji tranziti olmaqla, Mərkəzi Asiya-Azərbaycan-Avropa İttifaqı enerji formatının reallaşmasını təmin edəcək.

Hər 3 ölkə əhəmiyyətli həcmlərdə "yaşıl enerji" resurslarına malikdir və sözügedən dəhlizin təchizatçı kimi məsuliyyəti də onların üzərinə düşür. "Yaşıl enerji" karbon neytrallığını prioritet istiqamət kimi müəyyənləşdirmiş Qazaxıstan hazırda öz enerji infrastrukturunu bərpaolunan mənbələr üzərində inkişaf etdirməkdədir. Ölkədə ümumi gücü 43 giqavat olan "yaşıl layihələr"in həyata keçirilməsi istiqamətində bütün imkanlar səfərbər edilib və xarici şirkətlərlə razılaşmalar əldə olunub. Bu baxımdan Qazaxıstanın güclü bərpaolunan enerji potensialı "yaşıl kabel"in təminatında mühüm rol oynayacaq.

Özbəkistanın da alternativ enerji resursları kifayət qədər güclüdür və xarici investorlarla aparılan qiymətləndirmələr günəş və külək stansiyalarının potensiallarının həddsiz ümidverici olmasından xəbər verir. Özbəkistan 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırır. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti necə müddətdir ki, bu ehtiyatların istehsalı və emalı üçün böyük bir layihə icra edir. Nəticədə, bu ölkənin enerji gücü də Şərq-Qərb yaşıl dəhlizinin dayanıqlılığında mühüm əhəmiyyət kəsb edəcək.



### Azərbaycanın "yaşıl enerji" potensialı

Azərbaycanın nəzərdə tutulan "yaşıl enerji"ni nəql etməsi üçün potensialları ümidvericidir. Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17-18 faiz təşkil edir. Bu da 1278 MVt elektrik enerjisi deməkdir. Qiymətləndirmələrə görə, ölkəmizin bərpaolunan enerji mənbələri üzrə texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Bütün bu ehtiyatlar təsdiqləyir ki, ölkəmizin "yaşıl enerji" dəhlizində əsas tədarükçülərdən biri olmaq üçün böyük imkanları mövcuddur.

Azərbaycan "yaşıl enerji" ilə bağlı potensialının hərəkətə gətirilməsi istiqamətində çoxşaxəli əməkdaşlıq koalisiyası qurub, bir neçə nüfuzlu xarici və beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumu imzalayıb. Həmin sazişlərin bir neçəsi icra olunur və 2025-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan günəş və külək enerjisi stansiyalarından ən azı 1-2 QVt həcmində enerji istehsalı gözlənilir. Yaxın 4 ildə Azərbaycan bu gücü ən azı 2 dəfə artırmağı hədəfləyir və bu istiqamətdə xarici investorlarla birgə əsası qoyulmuş bərpaolunan enerji üzrə layihələr əsaslı rol oynayacaq.

Beləliklə, 3 qardaş ölkənin üçtərəfli əməkdaşlıq formatı enerji sistemlərinin inteqrasiyası və ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı körpü rolunu oynayacaq. Bu saziş, həmçinin bu türk ölkələrinin iqtisadiyyatını da Orta Dəhlizdə birləşdirəcək.

***ELBRUS CƏFƏRLİ***

# Azad ərazilər turizmin cəlbedici ünvanına çevrilir

## Bölgədə inkişaf edən turizm sənayesi əhalinin məşğulluğuna və gəlir əldə etməsinə töhfələr verir

Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Xocalıya səfərləri çərçivəsində açılışını etdiyi və tikinti işlərinin gedişi ilə maraqlandığı mühüm infrastruktur obyektləri sırasında turizm layihələri də öz əhəmiyyətinə görə, xüsusi yer tutur. Onların sırasında Ağdamda inşası tamamlanmaqda olan "Hilton Garden İnn" hotelli bu regionun turizm sektorunun inkişafı üçün yeni imkanlar açır. Qarabağın geniş turizm potensialında özünəməxsus yeri ilə seçilən Ağdamda aparılan sürətli bərpa-quruculuq işləri, yol-nəqliyyat, sosial infrastrukturların yaradılması bu ərazilərin turizm sənayesini də hazır vəziyyətə gətirir. Ötən ilin sentyabrında qapılarını qonaqların üzünə açan "Aghdam City Hotel" turizm üçün ilk addımların əsasını qoyub. "Hilton Garden İnn" hotelinin və digər mühüm turizm obyektlərinin yaxın vaxtlarda istifadəyə verilməsi bu rayonun əvvəlki turizm şöhrətini tam bərpa edəcək.

### Xankəndidə canlanan turizm sektoru

Qarabağın ən füsunkar və iqliminə görə, ən dilbər guşələrindən biri olan Xankəndidə də turizm sektoru canlanmaqdadır. Ötən ilin iyul ayında "Qarabağ" və "Palace" hotellərinin turistlərin ixtiyarına verilməsi bu şəhərin əvvəlki turizm simasının özünə qayıtmasında müjdə olub. Bunun ardınca Xankəndidə mühüm sosial, ictimai iaşə obyektləri, müxtəlif restoran, xidmət və ticarət mərkəzlərinin istifadəyə verilməsi, bölgənin şəhər sənayesinin inkişafı ilə bağlı layihələrin icrası turizm sekstorunun inkişafına öz töhfəsini verib. Prezident İlham Əliyevin bir neçə gün əvvəlki səfəri çərçivəsində istifadəyə verilən "Bulud" hoteli isə turizm arxitekturasında özünəməxsus yerini tutmaqdadır. Ağdam-Xankəndi dəmir yolunun yenidən qurulması isə bu şəhərin və ətraf bölgələrin vahid turizm zəncirində birləşməsində mühüm rol oynayacaq.



### Kəlbəcər turizmin cənnətinə çevrilə bilər

Ümumilikdə, işğaldan azad olunmuş ərazilərimiz öz füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri, geniş turizm imkanları ilə bütün qonaqların diqqətini cəlb edir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bölgənin geniş dağ silsiləsi ilə əhatə olunması, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının zəngin təbiəti, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının ekologiyası dağ və ekoturizm üçün ən münbit zonadır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. Tamamlanmaqda olan "İstisu" sanatoriyası kurort və müalicə turizmi ilə yanaşı, xarici qonaqlar üçün ən cəlbedici münbit iqlim zonadır. Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. Eləcə də Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri zəngin tarixi-memarlıq abidələri ilə Azərbaycanın və dünyanın mədəniyyət salnaməsidir. Bu ərazilərdə tarixi-mədəni turizmin inkişafı üçün həddsiz dərəcədə potensiallar mövcuddur.

### Şuşanın ecazkar turizm mühiti

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının digər ərazilərində də turizm sənayesinin inkişafı yönündə dövlətin və özəl biznesin imkanları hesabına ardıcıl layihələr icra olunmaqdadır. Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi və cəmi 2-3 il ərzində "Qarabağ" və "Xarıbülbül" hotellərinin açılışı bu şəhərin turizmin ən zəngin mərkəzinə çevrildiyini göstərir. Eləcə də Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx və Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. Hazırda Tuğ, Hadrut, Daşaltıda turizm infrastrukturunun yaradılması üçün inkişaf konsepsiyaları üzrə layihələndirmə işlərinin aparılması da təsadüfi deyil. Eləcə də "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması da bu strateji məqsədə xidmət edir.

Zəngilan rayonunun Ağalı kəndində 2 ildir ki, fəaliyyətdə olan "Ağalı" hoteli azad edilmiş ərazilərdə ilk turizm obyektlərindən biri olmaqla, bölgənin ekoturizm potensialının səfərbər edilməsinə zəmin yaradıb. Zəngilanda Beynəlxalq Hava Limanının istifadəyə verilməsi bu rayona turist axını üçün əlverişli mühit yaradıb, eləcə də Zəngəzur dəhlizinin ən mühüm landşaftlarından biri olan Horadiz-Ağbənd dəmir yolu xəttinin və magistral avtomobil yollarının inşası Zəngilanda turizmin dirçəlişini daha da böyüdəcək.

### Bölgəyə 1 milyon turistin səyahəti gözlənilir

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan əsas prioritetlərdən biri bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı zəruri təminatların yaradılmasıdır. Bu məqsədlə turizm sənayesinə müxtəlif iqtisadi stimullar verilib, turizm sektoru vergilərdən azad olunub. Bu ərazilərə investisiya qoyuluşunu artırmaq üçün müxtəlif dövlət dəstəyi tədbirləri müəyyən olunub. Tədbirlər Plana uyğun olaraq bölgədə davamlı işlər görülür, turizm marşrutları hazırlanır. Eyni zamanda, yerli və xarici turistlərin artıq bu bölgəyə səfərləri üçün turpaketlər təşkil olunmaqdadır.

Beləliklə, Qarabağ və Şərqi-Zəngəzurda hər istifadəyə verilən turizm obyektləri yeni turist axınları üçün əlverişli qapı deməkdir. Proqnozlara görə, yaxın illərdə daxili və xarici turistlərlə birgə bu bölgəyə 1 milyon turistin səyahət edəcəyi gözlənilir. Bölgədə formalaşan dayanıqlı turizm sənayesi bu rayonlarda məşğulluğun təmin olunmasına və əhalinin gəlirinin artmasına da səbəb olacaq.

***E.CƏFƏRLİ***



*İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır!*

# "Bu gün mən Milli Məclisə təklif verdim..."




## Parlament qəbul etdi

### Milli Məclisin 24 fevral 1994-cü il 791 №-li qərarı

**"...1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik...."**

***Heydər Əliyev***

## İnsanlıq əleyhinə cinayət

Unutsaq, unudularıq, deyiblər. Biz də soy-kökünə, milli-mənəvi dəyərlərinə bağlı olan bir xalq kimi, emənilərin zaman-zaman tarixi torpaqlarımızda azərbaycanlılara qarşı törətdikləri qətliamları, amansız deportasiyaları heç vaxt yaddan çıxarmırıq. Baş verənlər həm də hüquqi müstəvidə təsbit olunaraq gələcək nəsillərə çatdırılır. 1994-cü il fevralın 24-də Milli Məclis Xocalı soyqırımı ilə bağlı xüsusi qərar və dünya azərbaycanlılarına müraciət qəbul edib. Bəhs olunan qərara əsasən, ölkəmizdə 26 fevral "Xocalı soyqırımı günü" kimi müəyyənləşdirilib.

XX yüzillikdə Azərbaycan xalqı 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə olmaqla düz dörd dəfə ermənilər tərəfindən amansız deportasiyaya, etnik təmizləmələrə məruz qalıb. Ötən yüzillikdə sərhəd tanımayan erməni vandalizminin növbəti ünvanı isə Xocalı şəhəri olub. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımı ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri cinayətlər sırasında xüsusi amansızlığı ilə fərqlənir. Həmin qanlı tarixdə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər bir gecənin içində bütün şəhəri yerlə-yeksan ediblər. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlifdərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib.

Sadalanan faktlar bir daha təsdiqləyir ki, ermənilər bütün beynəlxalq konvensiyaları tapdalayaraq Xocalıda insanlıq əleyhinə cinayət törədiblər. Ermənilər hər zaman özlərini dünyaya "mədəni" və yaxud "qəhrəman" xalq kimi təqdim etməyə çalışırlar. Ancaq Xocalı faciəsi bunun sadəcə mif olduğunu bütün təfərrüatları ilə ortaya qoyur.

## Qan yaddaşımıza yazılan faciə

**"Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı" adlanan sənəddə deyilir:**

***"Azərbaycan Respublikasının Milli Məclisi erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının təklifini müzakirə edərək qərara alır:***
***1. 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı soyqırımı günü" elan olunsun və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin.***
***2. Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və "Xocalı soyqırımı günü"nün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilsin (müraciətin mətni əlavə olunur).***

**Bakı şəhəri, 24 fevral 1994-cü il".**

## Xocalı soyqırımına siyasi qiymət verilməsi

Xocalı faciəsini törədən, uşaqları, qadınları, qocaları xüsusi qəddarlıqla qətlə yetirən və sonradan bunu milli səviyyədə "qəhrəmanlıq dastanına" çevirən ermənilərin mənəviyyatsızlığı, insanlıqdan kənar olmaları öz yerində. Belə əməllər yalnız nifrətə layiqdir. Ancaq o dövrdə Azərbaycana rəhbərlik edən şəxslərin məsuliyyətsizliyi də heç bir ölçüyə sığmır. Həmin ərəfədə ermənilərin silahlanmasına, hücuma keçməyə hazırlaşmalarına aid xəbərlər gəlirdi. Xocalı sakinlərinin yaratdıqları yerli özünümüdafiə dəstələrinin müqavimətinə baxmayarq, şəhər ətrafında mühasirə həlqəsi getdikcə daralırdı. Bakıdan, respublika rəhbərliyindən kömək istənilirdi. Bununla belə, xocalıların fəryadına ögey münasibət bəslənildi. Şəhərin müdafiəsi, oradan əhalinin çıxarılması üçün hansısa bir tədbir görülmədi və nəticədə faciə qaçılmaz oldu.

Eyni zamanda, siyasi çəkişmələrin nəticəsi olaraq 1992-ci ilin yazında qeyri-qanuni yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi. Bu da səbəbsiz deyildi. Bəhs olunan çütlük hakimiyyətə aparan yollarını xalqın məhrumiyyətləri və faciələri üzərindən açmışdılar. Onların yeganə məqsədi hakimiyyətə gəlmək idi və bu istəklərinə çatdıqdan sonra verdikləri bütün vədləri unutdular.

Xocalı faciəsinə siyasi qiymət 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi hakimiyyətinə qayıdan böyük siyasətçi Heydər Əliyevin təkidli səyləri sayəsində verildi. Milli Məclisdə bəhs olunan qərar da məhz Heydər Əliyevin təşəbbüsü əsasında çıxarıldı. Bundan sonra Prezident Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilib. Həmçinin 1998-ci ildə Heydər Əliyevin müvafiq sərəncamında Xocalı faciəsi soyqırımı adlanıb. 2002-ci ildə isə Milli Məclisdə soyqırımının 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlər soyqırımı kimi tanınıb.

***Mübariz FEYİZLİ***

# Sülhə gedən yolun əvvəli...

## Ermənistanda Konstitusiya dəyişir

**Ermənistanın ötən ilin sonunda başlatdığı Aİ üzvluyünə namizədlik prosesi ilə bağlı referendum keçirilməsi planlaşdırılır. Çünki proses həm də Konstitusiya dəyişikliyini özündə ehtiva edir. Yeni Konstitusiyanın təsdiqi ilə bağlı ümumxalq səsverməsinin nə zaman keçiriləcəyi isə tam məlum deyil - fevralın 19-da Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, ölkəyə yeni konstitusiya lazımdır. "Yeni konstitusiyanın qəbulu böyük əhəmiyyət kəsb edir. Çünki hazırkı konstitusiyanın qəbulu ilə bağlı keçirilən bütün referendumlarla bağlı ictimai qavrayışda ciddi qeyri-legitimlik hökm sürür. Yeni konstitusiyanın qəbulunun strateji məqsədi vətəndaşlığı olmayan millətin qalıq fəaliyyətindən dövlət quran xalqın fəaliyyətinə keçiddir".**

## Paşinyan təsdiqləyir - Qalyan yeni mətnin hazırlandığını deyir...

Göründüyü kimi, Paşinyan Konstitusiya dəyişikliyinin yalnız Aİ üzvlüyünə namizədlik prosesi ilə bağlamır - o dolayısı ilə, yeni yaranan situasiyanın, özünün təbirincə desək Ermənistana "kupça" alınmasının səbəbi kimi də yeni əsas qanuna ehtiyacın olduğunu irəli sürür. Yeni Konstitusiyadakı dəyişikliklərin nədən ibarət olması haqda hələlik dəqiq məlumat yoxdur - Ermənistan ədliyyə naziri Srbuhi Qalyan hökumətin iclasından sonra keçirilən brifinqdə bildirib ki, ötən illər ərzində yeni Konstitusiya layihəsi ilə bağlı konsepsiyaların hazırlanmasına cəhdlər olub və bu konsepsiyalar demək olar ki, hazırlanıb. "İndi bizim vəzifəmiz yeni konsepsiya hazırlamaq deyil, Konstitusiyanın yeni mətnini hazırlamaqdır. Hazırda bu istiqamətdə işlər aparılır. 2026-cı il seçkilərinə qədər yeni Konstitusiyanın mətninin hazırlanmasını təmin etməliyik, bundan sonra təbii ki, referendumun keçirilməsi ilə bağlı qərar veriləcək", - deyə o bildirib. Qalyan seçkilərdən sonra Konstitusiya ilə bağlı referendumun keçiriləcəyini də istisna etməyib: "Bəli, çox güman ki, belə də olacaq". Yeni Konstitusiyada Müstəqillik Bəyannaməsinə istinadın olub-olmaması ilə bağlı suala o, belə cavab verib: "Mən heç nəyi istisna etmirəm, bu məsələ ilə bağlı hələ yekun qərarımız yoxdur, lakin bu gün mövcud olan ifadənin qüvvədə olub-olmaması real həyatımızda heç nəyi dəyişməyib. Bu məqamda mətnin bir hissəsini şərh etmək istəməzdim, bunu müvafiq komissiyanın öhdəsinə buraxacağımızı düşünürəm".



## Konstitusiya dəyişikliyi nə vəd edir?

Göründüyü kimi, Paşinyan və komandası sülhün əsas şərtlərindən biri olan Konstitusiya dəyişikliyi məsələsinin artıq aktuallaşdığını etiraf edir. Çünki sülh üçün bu şərt zəruridir - Azərbaycan regionda ədalətli sülhün yaranmasında maraqlı olduğunu hər zaman irəli sürür. Ölkəmizin sülh şərtləri də bəllidir - 2022-ci ildə meydana çıxan prosesdə ön planda tutulan aparıcı meyarlar müəyyənləşdirilib. Ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması, əsassız iddiaların aradan qaldırılması kimi şərtlər gələcək dövrün sabitliyi üçün ən vacib məqamlardandır. Bu mənada, Azərbaycanın Ermənistanın Konstitusiyasında yer alan qondarma ərazi iddiasının dəyişdirilməsi tələbi də arqumentli, əsaslı bir tələbdir. Hazırki durumda Ermənistan hələ də Azərbaycan torpaqlarına iddiasını davam etdirir - Konstitusiyasında belə bu iddianı əks etdirən işğalçı ölkənin "gələcək planlarında" yenidən bu qondarma fikrə düşməyəcəyi qarantiya olunmur. Ötən 200 illik təcrübə bunu deməyə əsas verir. Başqa sözlə, bu gün sülhə imza atacaq Ermənistanın siyasi hakimiyyətinin dəyişikliyi fonunda İrəvanda hökumətə yiyələnəcək bir başqa qüvvənin Konstitusiyanın bu müddəasını əlində əsas tutaraq sülhü pozmayacağına kimsə təminat verə bilməz. Beləliklə, Bakının İrəvandan tələb etdiyi Konstitusiya dəyişikliyi praktik olaraq həm haqlı, həm də ədalətlidir.

Bu dəyişiklik Ermənistanın özü üçün də mühüm bir amildir. Bu kimi qondarma iddialardan əl çəkməklə Ermənistanın özünün regiondakı yerini müəyyənləşdirəcək, Türkiyə və Azərbaycanla münasibətlərdə yeni bir mərhələ yaradacaq. Bu isə İrəvanın gələcək inkişaf yolu üçün bir mayakdır.

## Paşinyan sülhü imzalamalıdır - bunun üçün isə....

Eyni zamanda, yeni Konstitusiya Paşinyanın siyasi karyerası üçün də vacib amilə çevrilib. Qlobal mühitdə baş verən dəyişikliklər Paşinyanın vaxtilə arxayın olduğu meyarları sıradan çıxarıb. Artıq Fransa öz hayındadır - ABŞ-ın yeni hakimiyyəti isə İrəvanla Bayden administrasiyasının imzaladığı xartiyaya ciddi yanaşmır. Başqa sözlə, İrəvanın "geniş dəstək kampaniyası" başa çatıb. Artıq Paşinyanın özünün oturduğu kresloya təhdidlər formalaşır. Keçmiş revanşist komandanın dirçəlməsi prosesinin şahidi oluruq. Bu isə hazırkı baş nazirə müsbət heç nə vəd etmir. Koçaryan-Sarkisyan ittifaqının yenidən dirçəlməsi Paşinyanı nəikni vəzifəsindən edəcək, hətta gələcək aqibətini də sual altına alacaq. Bunu Nikol Paşinyan özü də dərk edir. 2026-cı ildə baş tutacaq parlament seçkilərinə qədər Paşinyanın özünün yerdə sürünən reputasiyasına "əl gəzdirməlidir". Bunun üçün isə ən real şans bölgədəki durumu düzəltmək, bahşqa sözlə qonşularla "sıfır problem" münasibəti qurmaqdır. Paşinyan 2025-ci ildə Konstitusiya dəyişikliyi edəcəyi, Azərbaycanla sülh müqaviləsi imzalayacağı, Türkiyə ilə sərhədlərin açılmasına nail olacağı halda özünün hakimiyyət nərdivanındakı yerini qoruya biləcək. Sülhün əldə olunmayacağı təqdirdə, İrəvanda yeni və daha ağır siyasi böhranlar qaçılmazdır...

***P.İSMAYILOV***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə Ankara şəhərinə səfər edib.

YAP nümayəndə heyəti fevralın 23-də AK Partinin Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçiriləcək VIII Böyük Qurultayında iştirak edəcək.

Səfər çərçivəsində bir sıra görüşlərin keçirilməsi də nəzərdə tutulub.

Nümayəndə heyətinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

AK PARTİ

# Qərar qanunlar əsasında verilib

## BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi siyasiləşdirilməməlidir



BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinin dayandırılmasını müəyyən dairələr siyasiləşdirməyə çalışır. "BBC News" yaydığı bəyanatda iddia edib ki, Azərbaycan Xarici İşlər Nazirliyindən şifahi göstəriş aldıqdan sonra ölkədə ofisini bağlamaqla bağlı "könülsüz qərar" qəbul edib. BBC əsassız olaraq bunu "mətbuat azadlığına qarşı məhdudlaşdırıcı addım" sayıb. "Bu addım bizim ölkə daxilində və xaricindəki auditoriyalarımız üçün Azərbaycana və Azərbaycandan xəbər verməyimizə əngəl törədəcək. Hər həftə təxminən 1 milyon insan BBC News Azərbaycancadan etibarlı qərəzsiz xəbərlər alır. Biz Azərbaycan hökuməti ilə əlaqə saxlayırıq ki, onların göstərişinə aydınlıq gətirək və vəziyyəti həll etməyə çalışaq", -deyə bəyanatda bildirilib.

**XİN: Qəbuledilməzdir!**

Azərbaycanın Xarici İşlər Nazirliyi isə məsələyə münasibətdə mövzuya aydınlıq gətirib. Belə ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualını cavablandırıb. A.Hacızadə bununla bağlı deyib: "BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi məsələsinin siyasiləşdirilməsi, məsələnin mahiyyətinin BBC tərəfindən təhrif olunması, ümumilikdə ikili standartlar yanaşması nəzərə alınaraq media azadlığı məsələsinə dair ölkəmizə qarşı BBC-nin açıqlaması təəssüf doğurur və qəbuledilməzdir".

**Fevralın 13-də keçirilən görüşdə...**

Onun sözlərinə görə, BBC-nin ölkəmizdəki nümayəndəliyinin bağlanması ilə bağlı qərar müvafiq şəkildə fevralın 13-də Xarici İşlər Nazirliyi tərəfindən BBC-nin ölkəmizdəki nümayəndələri ilə görüş zamanı rəsmi şəkildə çatdırılıb və mövqeyimiz qarşı tərəfə tam şəkildə izah olunub. Azərbaycan Respublikasının bütün xarici ölkələrin media qurumları ilə münasibətlərdə və qərarlarda hər zaman qarşılıqlılıq prinsipini əsas götürdüyü qarşı tərəfə bildirilib. Bu çərçivədə aparılmış təhlillər nəticəsində, eləcə də ölkə qanunvericiliyi, xüsusilə "Media haqqında" Qanunun 11.2-ci maddəsi əsas götürülməklə BBC-nin ölkəmizdə nümayəndəlik qismində fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı diqqətə çatdırılıb.

**1 müxbir üçün akkreditasiya**

Qeyd edək ki, nümayəndəliyin bağlanması qərarının BBC yayım şirkətinin ölkəmizdə müxbir fəaliyyətinə aidiyyəti yoxdur və 1 nəfər müxbir üçün akkreditasiya verilməsi nəzərdə tutulub. A.Hacızadə onu da xatırladıb ki, oxşar qərarlar bəzi digər xarici media qurumları ilə bağlı da verilib.

*Nardar BAYRAMLI*

# Sülh, yoxsa müharibə?

Ermənistan müharibəyə hazırlaşır - İrəvan nisbətən ucuz silah və sursat idxalını həyata keçirmək məqsədilə Hindistanla müdafiə dialoqunu genişləndirir. Türkiyənin "Star" qəzetinin məlumatına görə, Ermənistan Azərbaycanla 44 günlük müharibə nəticəsində itirdiyi hərbi-texniki potensialını bərpa etmək üçün Fransa və Hindistandan silah almağa başlayıb. İrəvan, həmçinin ABŞ, Yunanıstan, yunan Kipri ilə də hərbi əlaqələri genişləndirmək niyyətindədir.

Qəzetin məlumatında qeyd olunur ki, 2020-ci ildə Ermənistan ilə Hindistan arasında təxminən 2 milyard dollarlıq ilk böyük müqavilə imzalanıb - son üç-dörd ildə hər iki ölkə hərbi-texniki sahədə əlaqələri daha da genişləndirib. "Star" qeyd edir ki, müdafiə naziri Suren Papikyanın başçılığı ilə Ermənistanın yüksəksəviyyəli nümayəndə heyəti fevralın 10-14 - də Yeni Dehlidə "Aero India 2025" beynəlxalq aerokosmik sərgisini ziyarət etmək üçün Hindistana səfər edib - aviasalon çərçivəsində Ermənistan və Hindistan müdafiə nazirlərinin iştirakı ilə hər iki ölkənin nümayəndələri arasında yeni silahların tədarükü və müxtəlif növ silahların birgə istehsalı barədə müzakirələr aparılıb.

Nəşr bildirib ki, Ermənistanı Hindistandan aktiv şəkildə silah-sursat idxal etməyə sövq edən əsas səbəb Ermənistan ordusunu daha müasir silahlarla təmin etmək və vaxtilə Rusiyadan alınan silahların sayını azaltmaqdır. Buna görə də Ermənistan 2024-2025-ci illər üçün Hindistandan daha 600 milyon dollar məbləğində silah almağı öhdəsinə götürüb - İrəvan daha çox artilleriya sistemlərinə və hava hücumundan müdafiəyə üstünlük verir. Eyni zamanda Ermənistan Hindistanın "Zen Anti-Drone System" şirkəti ilə pilotsuz uçuş aparatları əleyhinə sistemlərin tədarükü üçün 41 milyon dollarlıq müqavilə imzalayıb və "Hindustan Aeronautics Limited" şirkəti ilə 4 "Su-30 SM" təyyarəsinin təkmilləşdirilməsi məsələsi də müzakirə olunur.




Papikyanın Ermənistanın bu silahlardan "həm müdafiə, həm də hücum üçün" istifadə etməsini deməsi də xüsusi diqqət çəkir.

Maraqlıdır, Ermənistan Baş naziri Nikol Paşinyan son zamanlar regionda sülh və sabitliyin əhəmiyyətindən, qonşularla dostluq münasibətlərin zəruriliyi ilə bağlı bəyanatlar səsləndirir, konstitusiya dəyişikliklərinə gedəcəyini bəyan edir, amma onun müdafiə naziri isə açıq şəkildə Ermənistanın müharibəyə hazırlaşdığını bildirir. Hər ikisinin bəyanatları bir-biri ilə ziddiyyət təşkil edir. Ermənistanın hərəkətləri qeyri-müəyyən olaraq qalır - İrəvan sülhə, yoxsa müharibəyə hazırlaşır?

Ola bilsin ki, Paşinyan bir tərəfdən ağızdolusu sülhdən danışır, digər tərəfdən ölkəsini sürətlə silahlandırır. Bu, o anlama gələ bilər ki, Ermənistan manipulyasiya ilə məşğul olur - bu yolla həm vaxtı uzadır, həm də hərbi potensialını gücləndirir.

Məsələ ilə bağlı politoloq Zaur Məmmədov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ermənistan ciddi şəkildə silahlanmaqda davam edir:

"Ermənistan öz silah arsenalını genişləndirir. Bunu bir neçə istiqamətdə həyata keçirir. İrəvan Fransa və Hindistandan həm müdafiə, həm də hücum xarakterli silahlar alır. Eyni zamanda İrəvan hərbiçilərdən ibarət olan Aİ-nin mülki missiyasını Azərbaycanla sərhəd ərazilərə gətizdirib. Bütün bu addımlar bölgənin hərbiləşdirilməsi deməkdir - bu da regional təhlükəsizliyə çox ciddi təhdid yaradır. 90-cı illərdə olduğu kimi Ermənistan yenə də aqressiyaya əl atır. Gələcəkdə kimin hakimiyyətdə olmasından asılı olmayaraq, Fransa və Hindistandan alınan silahlar növbəti hərbi qarşıdurmanın baş verməsi üçün istifadə oluna bilər. Hər hansı təxribatın baş verməsi sərhədlərin delimitasiya prosesinin ləngiməsinə gətirib çıxara bilər".

"Politoloq vurğulayıb ki, Ermənistan öz hərəkətlərində ehtiyatlı olmalıdır: "Ermənistanın sərhəddə təxribatlara başlaması Azərbaycanın adevkat tədbirlərə əl atmasına gətirib çıxara bilər. Əslində məğlub olan ölkə ordu quruculuğu ilə məşğul olmamalı, başqa ölkələrdən hücum xarakterli silahlar almamalı və şərti sərhəddə qoşun cəmləşdirməməlidir. Beynəlxalq ictimaiyyətin səssizliyi Ermənistanı bu addımları atmağa sövq edir. Bu isə İrəvana baha başa gələcək".

*Yunis ABDULLAYEV*

# Milli maraqlarımızın müdafiəsi...

## Gənclər arasındakı təbliğat qənaətbəxşdir

İctimai və dövlət maraqları müdafiə olunmasa, ölkənin suverenliyi və təhlükəsizliyi təhdid altına düşmüş olar. Bu maraqlarının qorunması hər bir cəmiyyətin başlıca məqsədlərindən biridir. Çünki hər iki amil bütöv bir toplum üçün həyati əhəmiyyət kəsb edir. Bu baxımdan, ictimai və dövlət maraqlarının müdafiəsi məsələləri daim aktuallığını qoruyur.

Dövlət maraqlarının, ictimai və milli maraqların təmin olunması məsələsi bizim üçün hər zaman ən qabaqcıl yerdə dayanır. Daha dəqiq desək, Azərbaycanda bu məsələ həmişə olduğu kimi, indi də prioritetdir. Onu da unutmaq lazım deyil ki, milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini özündə birləşdirir. Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, formalaşmış bir cəmiyyətdir.

**İdeal cəmiyyətin formalaşması üçün...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov bildirib ki, ölkəmiz bəşəri və milli dəyərləri nəzərə alan, qoruyan və geniş miqyasda təbliğ edən ölkədir: "Xalqımızın dəyərləri, insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatları ictimai və milli maraqlar məcmusudur. Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edir, eləcə də bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacarır. Məhz ideal cəmiyyətin formalaşması üçün həm dövlətin mənafeyinə zərər gəlməməsi, həm ictimai maraqların təmin edilməsi, həm də ortaq maraqların müəyyənləşdirilməsi tələb olunur. Ölkəmizdə belə bir mühitin formalaşdığının hər kəs şahididir".

**Hər kəs Vətən anlayışına həssas yanaşmalıdır**

Deputatın sözlərinə görə, dövlətimiz ictimai asayişi təmin etdiyi, maraqlarımızı hər zaman qoruduğu kimi, vətəndaşlar da Vətənə bağlı olmalı, bu bağlılığı qətiyyən itirməməlidirlər: "Yalnız ölkə daxilində yaşayan vətəndaşlarımız deyil, ölkəmizin hüdudlarından kənarda olar həmvətənlərimiz özləri də Vətən anlayışına həssas yanaşmalı, Vətənlə bağlarını qətiyyən itirməməlidir. Yeri gəldiyi zaman ölkəmizin hüdudlarından kənarda yaşayan həmvətənlərimiz yaşadıqları, məskunlaşdıqları ölkələrdə Azərbaycan həqiqətlərinin çatdırılmasında səy və



bacarıqlarını ortaya qoymalıdırlar və var güclərini buna sərf etməlidirlər. Bununla yanaşı həm ölkəmizdə yaşayan azərbaycanlılar, həm də ölkəmizin sərhədlərindən kənarda, xarici ölkələrdə olan həmvətənlərimiz daim öz övladlarını Vətənə bağlı olaraq yetişdirməlidirlər".

**Maarifləndirmə işi uğurla aparılıb**

K.Bayramov qeyd edib ki, məhz 44 günlük savaşda torpaqlarımızın işğaldan azad edilməsi zamanı bir daha əmin olduq ki, vətəndaşlarımız ictimai və dövlət maraqlarının qorunmasına həssas yanaşırlar: "Həmin maraqlar uğrunda canından keçən oğullarımızın olması bunu bir daha təsdiq etdi. Azərbaycan xalqının oğul və qızları milli, ictimai və dövlət maraqları naminə vuruşmağa, bu yolda canını belə fəda etməyə qadirdirlər. Bu isə onu deməyə əsas verir ki, milli maraqlar, ictimai və dövlət maraqlarının qorunmasının vacibliyi istiqamətində ölkəmizdə davamlı şəkildə maarifləndirmə işi uğurla aparılıb və vətənpərvərlik ideologiyasının gənclər arasında təbliğatı yönündə nəticələr də qənaətbəxşdir. Belə məlum olur ki, xalqımıza, dövlətimizə, bizə məxsus olanın müdafiəsi, mühafizəsi üçün milli maraqların, ictimai və dövlət maraqlarının qorunması, təbliğatı bundan sonra da uğurla aparılmalıdır. İstər orta məktəbdə, istər ali məktəbdə, istərsə də hər hansı təhsil ocağında gənclərin vətənpərvərlik ruhunda tərbiyə alması, milli maraqların, ictimai və dövlət maraqlarının qorunması barədə kifayət qədər təbliğatın aparılması, bu istiqamətdə maarifləndirmənin həyata keçirilməsi öz aktuallığını qoruyur. Məhz elə bu təbliğat və maarifləndirmə, övladların vətənpərvərlik ruhunda tərbiyə edilməsi sayəsində Azərbaycan gəncləri Vətənin ərazi bütövlüyü uğrunda dövlət ətrafında birləşməyə, milli maraqları qorumağa hazır oldular. Bu hazırlıq bizə ən tez zamanda qələbə bəxş etdi və bütün dünya buna şahid oldu".

*Sahib*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

# Təminatlı iş yeri, layiqli əməkhaqqı...

## Ötən il ölkədə 92 minə yaxın yeni iş yeri açılıb

2024-cü il ərzində Azərbaycanda 91,7 min yeni iş yeri açılıb ki, bu da əvvəlki illə müqayisədə 11,42 faiz çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu dövrdə yaradılmış iş yerlərinin 91,6 faizi özəl sektorda açılıb. Yeni açılmış iş yerlərinin 75,2 faizi Bakı şəhərinin, 24,8 faizi isə regionların payına düşür.

Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 24,1 faizi tikinti, 17,4 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 10,5 faizi emal sənayesi, 8,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7,2 faizi peşə, elmi və texniki fəaliyyət, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,5 faizi təhsil, 3,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 2,3 faizi informasiya və rabitə, 8,9 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

Qeyd edilən dövrdə insanların əməkhaqqı və real gəlirləri də artıb. 2024-cü ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,1 faiz artaraq 1009,2 manat təşkil edib.

### İqtisadi aktivlik və sahibkarlıq mühiti

Son illərdə ölkədə həyata keçirilən iqtisadi siyasət və davamlı islahatların, o cümlədən regionların sosial-iqtisadi inkişafı ilə bağlı yürdülən tədbirlərin nəticəsi olaraq milli iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sektorunun inkişafı sürətlənib. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası bütün bölgələrin, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində əhəmiyyətli dönüş yaradıb, yeni yaradılan müəssisə və obyektlərin, biznes subyektlərinin sayının artması əhalinin məşğulluğunun və maddi rifahının yüksəlməsinə səbəb olub.

Dövlət proqramlarının uğurlu icrası öz növbəsində vergi daxilolmalarının artımına öz müsbət təsirini göstərib. Həmçinin, sənaye parklarının və aqroparkların yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsində mühüm rol oynayıb. Xüsusilə də aqroparkların yaradılması həm də kəndlərdə yaşayan əhalinin iş yerləri ilə təminatında və sosial vəziyyətinin yaxşılaşmasında mühüm əhəmiyyət kəsb etməkdədir.

Bölgələrdə iqtisadi aktivliyin və sahibkarlıq subyektlərinin sayının artması, həm büdcə gəlirlərinin regional diversifikasiyasına müsbət təsir göstərib, həm də regionların maliyyə imkanlarının yaxşılaşmasında əsaslı zəmin yaradıb. Yerli gəlirlərin şəffaflaşdırılması və uçotun dürüstləşdirilməsi istiqamətində həyata



keçirilmiş sistemli tədbirlər, eləcə də sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması nəticəsində vergi daxilolmaları artıb.

### Azad ərazilərdə 1000-dən çox iş yeri yaradılıb

Ölkəmizdə yeni iş yerlərinin yaradılmasında son illərdə Qarabağ və Şərqi Zəngəzurun mühüm rolu da artmaqdadır. İşğaldan azad edilmiş ərazilərdə öz doğma evlərinə geri dönən sakinlərin məskunlaşması tədbirləri ilə yanaşı, onların məşğulluğu ilə bağlı müxtəlif proqramlar və layihələr icra olunur. Ötən müddət ərzində Zəngilan, Füzuli, Laçın, Suqovuşan, Şuşa, Xocalı, Cəbrayıl, Xankəndi və digər ərazilərdə insanların məşğulluq imkanları ilə bağlı nəzərdə tutulan plan üzrə əhatəli tədbirlər həyata keçirilib, insanlar üçün çoxsaylı iş yerləri yaradılıb.

2025-ci il yanvarın 1-nə qədər bu bölgəyə köçən yerli sakinlər arasında 1000-dən çox insanın işlə fəaliyyəti təmin edilib. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin sayı 2000-nə yaxınlaşıb. Həmçinin, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 400-dən artıq müəssisənin fəaliyyəti təmin olunub.

### Yeni milli prioritetlər

Hazırda qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün ölkənin regionlarında güclü iqtisadi potensial mövcuddur və bu məsələ diqqət mərkəzindədir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, növbəti onillikdə reallaşdırılmalı olan milli prioritetlər ölkənin sosial-iqtisadi inkişafı üçün yeni hədəflər müəyyən edib, qeyri-neft iqtisadiyyatının inkişafın mərkəzinə çevrilməsi nəzərdə tutulub. Qeyri-neft sektorunun inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın effektivliyi, dövlət büdcəsinin gəlirlərinin artırılması və bu gəlirlərin müxtəlif mənbələrdən formalaşdırılması baxımından əhəmiyyətli hesab olunur. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında prioritet sahələrdir.

Beləliklə, qarşıdakı dövrdə Azərbaycanın ümumi iqtisadi inkişafında və əhalinin iş yerləri ilə təminatında əsas mənbələrdən biri kimi işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# ABŞ BMT-nin Ukrayna ilə bağlı qətnamə layihəsini dəstəkləməyib

## Vaşinqton G7 qrupunun bəyanatında Rusiyanın "təcavüzkar" adlandırılmasına da qarşı çıxıb

Rusiya-Ukrayna müharibəsi başlayandan ABŞ ilk dəfə olaraq BMT Baş Assambleyasının Ukrayna ilə bağlı qətnamə layihəsinin həmmüəllifi qismində çıxış etməyib. Sənədin müəllifləri arasında Böyük Britaniya, Fransa, Almaniya, Kanada, İsveçrə, Polşa və Baltikyanı ölkələr yer alır, lakin ABŞ bu siyahıya daxil olmayıb. Fevralın 24-ü üçün hazırlanan qətnamə layihəsində Rusiyanın Ukrayna ərazisindən qoşunlarını dərhal, tam və qeyd-şərtsiz çıxarması tələb olunur. Lakin ABŞ həmmüəlliflər sırasında olmamaqla BMT-nin Ukraynanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə layihəsini dəstəkləməkdən imtina edib.

**Vaşinqtonun bu addımı ABŞ Prezidenti Donald Trampın bu həftənin əvvəlində Rusiya ilə müharibəyə başlayan ölkənin Ukrayna olduğunu bəyan etməsindən sonra atılıb**

"Reuters"ə diplomatik mənbələrdən verilən məlumata görə, bu addım Ukraynanın dövlət başçısı Volodimir Zelenski ilə ABŞ Prezidenti Donald Tramp arasında artan fikir ayrılığını əks etdirir. BMT Baş Assambleyasının qətnamə layihəsində Rusiyanın təcavüzü pislənir və "Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə" sadiqliyi bir daha təsdiqlənir. "Əvvəlki illərdə Birləşmiş Ştatlar Ukraynada ədalətli sülhün bərqərar olması üçün ardıcıl olaraq bu cür qətnamələri dəstəkləyib", - nəşrin mənbələri bildirib. Məlumata görə, qətnaməni 50-dən çox ölkə dəstəkləyib. Bunların hansı dövlətlər olduğu barədə hələ ki, məlumat verilməyib.



Ukrayna mövzusunda rəsmi Vaşinqtonun addımları bununla da bitməyib. Belə ki, ABŞ G7 qrupunun bəyanatında Rusiyanın "təcavüzkar" adlandırılmasına da qarşı çıxıb. Bu barədə "The New York Times" nəşri məlumat yayıb.

**2022-ci ildən bəri G7-nin bəyanatlarında yer alan "Rusiyanın təcavüzü" və ya "təcavüzkarlar" sözlərindən istifadə olunmayan layihədə diplomatlar dil üzərində işləməyə davam edir**

Vaşinqtonun bu addımı ABŞ Prezidenti Donald Trampın bu həftənin əvvəlində Rusiya ilə müharibəyə başlayan ölkənin Ukrayna olduğunu bəyan etməsindən sonra atılıb.

G7-nin yüksəkrütbəli rəsmisi Kanadanın Ukraynaya dəstək bəyanatının ilk layihəsini digər altı üzv dövlətə yaydığını bildirib. Ottava G7-yə sədrlik etdiyi üçün layihənin hazırlanmasına liderlik edib. Öz növbəsində, ABŞ tərəfi bu həftə ilk layihəni nəzərdən keçirib və Ukraynanın lehinə olan bütün istinadları çıxarıb. Nəticədə sənəd layihəsində münaqişədə təcavüzkar kimi Rusiya və ya işğalın qurbanı kimi Ukrayna qeyd olunmayıb, Vaşinqton bu məsələdə bitərəf olub.

Hazırda "Rusiyanın Ukraynaya təcavüzü ilə başlayan dağıdıcı müharibəni" təsvir edən, lakin 2022-ci ildən bəri G7-nin bəyanatlarında yer alan "Rusiyanın təcavüzü" və ya "təcavüzkarlar" sözlərindən istifadə olunmayan layihədə diplomatlar dil üzərində işləməyə davam edir. Adının açıqlanmasını istəməyən G7-nin rəsmisi bildirib ki, mətnin hazırlanması və müzakirəsi bazar ertəsi gününə qədər davam edə bilər.

"Reuters"in məlumatına görə, Birləşmiş Ştatların, həmçinin BMT Baş Assambleyasının Ukraynanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən və Rusiyanın təcavüzünü pisləyən qətnamə layihəsinin birgə müəllifliyindən imtina etməsi də Vaşinqtonun prosesə yeni yanaşması ilə əlaqədardır. Hazırkı layihədə etibarlı təhlükəsizlik təminatlarının və Ukraynanın Avropa İttifaqına inteqrasiyasının "gələcək təcavüzün qarşısını alacaq davamlı sülhün təmin edilməsi üçün həlledici əhəmiyyətə malik olacağı" ifadəsi yer alır.

G7 ölkələri arasında danışıqlar davam edir və yekun mətn hələ müəyyən edilməyib. Bundan əvvəl Fransa prezidenti Emmanuel Makron və Böyük Britaniyanın Baş naziri Kir Starmerin Donald Trampla görüşmək üçün gələn həftə Vaşinqtona səfər edəcəyi bildirilirdi. Onların Trampı öz mövqeyindən daşındıra biləcəyi isə real görünmür.

***N. BAYRAMLI***

# ABŞ BMT-ni tərk edir?

Yaxın zamanda ABŞ Birləşmiş Millətlər Təşkilatını tərk edə bilər - Respublikaçı konqresmenlər ABŞ-ın BMT-dən tam çıxması ilə bağlı qanun layihəsi təqdim ediblər. Bu layihə ölkənin BMT-yə üzvlüyünün ləğvini, təşkilatın maliyyələşdirilməsinin tam dayandırılmasını və BMT-nin sülhməramlı missiyalarında iştirakın qadağan olunmasını nəzərdə tutur.

Sənədin təşəbbüskarları hesab edirlər ki, BMT ABŞ-ın milli maraqlarına uyğun fəaliyyət göstərmir və ölkə bu təşkilata üzv qalmaqla həm siyasi, həm də maliyyə baxımından ciddi itkilərlə üzləşir. Respublikaçılar vurğulayırlar ki, ABŞ-ın BMT-yə ödədiyi vəsaitlər qeyri-effektiv xərclənir və təşkilatın beynəlxalq siyasətdəki mövqeyi Amerika dəyərləri ilə ziddiyyət təşkil edir.



Qeyd edək ki, qanun layihəsi ölkə daxilində ciddi müzakirələrə səbəb olub - demokratlar bu addımı beynəlxalq diplomatiyaya ağır zərbə kimi qiymətləndirir və ABŞ-ın qlobal liderliyini zəiflədə biləcəyini bildirirlər. Respublikaçılar isə hesab edirlər ki, ABŞ BMT-dən ayrılmaqla öz müstəqil xarici siyasətini daha sərbəst şəkildə həyata keçirə biləcək.

Hazırda layihənin Konqresdə nə dərəcədə dəstək qazana biləcəyi sual altındadır. ABŞ-ın BMT-dən çıxması üçün bu qanun layihəsinin həm Nümayəndələr Palatası, həm də Senat tərəfindən təsdiqlənməsi və prezident tərəfindən imzalanması tələb olunur.

Maraqlıdır, görəsən, Konqresdə qanun layihəsinin qəbul olunması nə dərəcədə realdır? Əgər ABŞ BMT-nin üzvlüyündən çıxarsa, təşkilatda hansı dəyişikliklər baş verəcək? Dünyada hansı proseslərin baş verəcəyinin şahidi olacağıq? Sözsüz ki, BMT-nin Təhlükəsizlik Şurasının 4 daimi üzvü qalacağı təqdirdə təşkilatın nizamnaməsinə yenidən baxılacaq...

Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da 2023-cü il sentyabrın 19-da BMT-nin Baş Assambleyasının tribunasında təşkilatda ciddi dəyişikliklərin aparılmasına ehtiyac olduğunu bəyan etmişdi: "Biz BMT-nin rəhbərliyi altında dünyanın təhlükəsizliyi, sülhü və rifahının təmin edilməsinə cavabdeh olan qurumları sürətlə yenidən qurmalıyıq. Biz öz coğrafiyası və demoqrafik xüsusiyyətləri ilə dünyanın bütün mənşəyini, inanclarını və mədəniyyətlərini təmsil etməyə qadir olan qlobal idarəetmə arxitekturası qurmalıyıq. Nəticədə bir daha bütün qəlbimizlə deyirik ki, dünya beşdən böyükdür, daha ədalətli dünya mümkündür".

Azərbaycan Prezidenti İlham 2023-cü ilin yanvarında telekanallara müsahibəsində BMT-də islahatların zəruri olduğunu qeyd etmişdi: "70 ilə yaxın müddətdə, xüsusilə də son 30 ildə baş verən hadisələr, siyasi-hüquqi mənzərə BMT-də islahatların zəruri olduğunu qeyd-şərtsiz təsdiqləyir. Birincisi, təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də, Təhlükəsizlik Şurasında yer alan ölkələr istənilən qərarı qəbul edirlər, istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır".

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, hazırda konqresdə belə bir qanunun qəbul olunması inandırıcı görünmür: "Güman etmirəm ki, Konqresdə belə bir qanun layihəsi qəbul olunacaq. Böyük ehtimalla, respublikaçılar öz istəklərinə nail ola bilməyəcəklər. Amma respublikaçılar öz hədəfinə nail olmaq üçün nə zamansa yenə də belə bir qanun layihəsi təqdim edə bilərlər".

Politoloq vurğulayıb ki, Birləşmiş Ştatların BMT üzvlüyündən çıxması qlobal dünyada ciddi proseslərə gətirib çıxaracaq: "Ümumiyyətlə, İkinci Dünya müharibəsindən bəri davam edən status-kvo dəyişəcək, yəni indiki beynəlxalq siyasi sistem dağılmaq təhlükəsi ilə üz-üzə qalacaq. ABŞ öz istədiyi kimi hərəkət edəcək və maraqlarına uyğun sistemin qurulmasına çalışacaq. Digər böyük güclər də öz bildikləri kimi hərəkət edəcəklər. Qlobal dünya çoxqütblü sistemə transformasiya olunacaq".

BMT-də islahatların keçirilməsinə gəlincə, İ.Vəlizadə bunun mümkün olduğunu bildirib: "ABŞ-ın BMT-ni tərk edəcəyi təqdirdə qurumun Təhlükəsizlik Şurası öz funksionallığını itirəcək. Belə demək mümkünsə, yeni oyunçulardan ibarət yeni Təhlükəsizlik Şurası qurula bilər".

***Yunis ABDULLAYEV***

# 350 milyard nəyə, necə, nə zaman xərcləndi?

## Vaşinqton Kiyev üzərindən korrupsiya faktı aşkarlayıb
## Zelenski məsuliyyəti üzərindən atır, Bayden zərbə altındadır
## Ukraynadan sonra Ermənistan da hesabat verməli olacaq?

Ukraynada müharibənin bitirilməsinə hədəflənən proses bəzi mətləblərin də üzərinə işıq salmağa başlayıb. Belə ki, ötən 3 il ərzində Ukraynaya edilən yardım müzakirə predmetinə çevrilib. Ən maraqlı hal isə ondan ibarətdir ki, yardım verən tərəf ilə alan tərəf arasında səslənən rəqəmlər bir-birindən kəskin dərəcədə fərqlənir. Bəlli olduğu kimi, ABŞ prezidenti Donald Tramp bəyan edib ki, Birləşmiş Ştatlar Ukraynaya təxminən 350 milyard dollar yardım ayırıb, lakin bu vəsaitlərin xərclənməsi ilə bağlı hesabatların olmaması narahatlıq doğurur: "Prezident Zelenski ötən həftə bildirdi ki, ABŞ-ın Ukraynaya ayırdığı vəsaitin yarısını belə almayıb. Biz Kiyevə, görünür, 350 milyard dollar ayırmışıq. Ola bilər ki, bir qədər az, amma bu, böyük məbləğdir. Bəs bu pullar haradadır? Hara gedib? Mən bu barədə heç bir hesabat görməmişəm", - deyə Tramp vurğulayıb.

### Tramp 350 milyardın hesabını aparır, Zelenski "görmədim" deyir...

Prezident Zelenski isə tamam fərqli rəqəmlərlə danışır. Belə ki, o ABŞ-ın keçmiş prezidenti Co Baydenin administrasiyasının Kiyevə yardım üçün ayırdığı milyardlarla dolların hara getdiyini bilmədiyini etiraf etsə də, miqdarın 350 milyard olmadığını bildirib. Hətta o, ABŞ-ın Ukrynaya 177 milyard dollar yardım ayırdığı ilə bağlı xəbər eşitdiyini, bu pulun yarıdan çoxunu görmədiyini deyib. Zelenski Ukraynanın cəmi 75 milyard dollar aldığını təsdiqləyib. "Ukraynanın müharibə zamanı ordunu dəstəkləmək üçün 200 milyard aldığı doğru deyil. Bütün bu pulların hara getdiyini bilmirəm", - Zelenski bildirib.

Belə olan məqamda Ukraynaya ayrılan maliyyə yardımı ilə bağlı şəffaflıq məsələsi yenidən gündəmə gəlir. Tramp isə bu məsələdə israrlı görünür - "Ukrayna ABŞ-ın pulunun hara getdiyini izah etməlidir və ya onu qaytarmalıdır" - deyən yeni prezident, Zelenski ilə paralel olaraq keçmiş administrasiyanı da "fakt qarşısında qoyur...



### Ukraynada "yuyulan" pullar və Hanterin "əhf"i...

Haşiyəyə çıxaraq Trampın inauqurasiya mərasimindəki çıxışına diqqət yetirsək, orada maraqlı bir məqama rast gələ bilərik. Belə ki, yanvarın 20-də 47-ci prezident kimi and içən zaman Tramp nitqində bir sıra məsələlərə toxunmaqla yanaşı, əvvəlki administrasiyanın - Bayden komandasının bütün çirkin fəaliyyətini də ifşa etmişdi. O, əvvəlki komandanın ölkədə formalaşdırdığı radikal və korrupsioner quruluşu pisləmişdi. Xalqa müraciətində Tramp keçmiş hökuməti dövlətin əsas təsisatlarına etinasızlıq göstərərək vətəndaşlardan güc və sərvət qoparmaqda ittiham etmişdi. Paralel olaraq bildirək ki, Bayden prezidentliyinin son günlərində oğlu Hanter Bayden haqqında əhf sərəncamı imzalamışdı. Hanter Baydenə vergidən yayınma da daxil olmaqla 9 ittiham irəli sürülmüşdü və o, məhkəmədə təqsirli bilinmişdi. İttihamlar arasında Ukranya ilə bağlı məqam da yer alırdı. Belə ki, Hanter Ukraynada bəzi fəaliyyətlərlə yadda qalmışdı və onun korrupsiya əməliyyatı apardığı barədə mülahizələr vardı - hətta Bayden prezident seçildiyi dövrdə Tramp bu məsələlərin açılması ilə bağlı Ukrayna tərəfinə müraciət etsə də, ona cavab verilməmişdi.

İndi isə vəziyyət dəyişib - ortada müzakirəsi aparılan məbləğ olduqca böyükdür. Zelenski anlayır ki, gec-tez postunu təhvil verdikdən sonra mütləq şəkildə bu ittihamlara cavab verməli olacaq və 350 milyard dolların hesabatı ondan tələb ediləcək. Bu baxımdan, Zelenski işini indidən ehtiyatlı tutur:

### Bayden komandasına açıq ittiham...

- Məbləği 75 milyarda qədər "azaltmaqla" məsuliyyəti bölüşür;

- Tramp hakimiyyətinə Bayden administrasiyasına qarşı korrupsiya ittihamını tam şəkildə gerçəkləşdirmək üçün olduqca mühüm bir əsas verir;

- Ukrayna müharibəsinin davam etməsində israrçı olan tərəflərin əsl maraqlarını ortaya qoyur - Bayden administrasiyası hansı yolla olursa olsun, bu müharibəni sona qədər aparacaqlarını bildirirdilər.

Beləliklə, Tramp Ukraynadakı korrupsiya şübhəsini daxili arenaya daşımaq imkanı əldə edir. Onsuz da bu, Baydenə yaxın siyasətçilərə qarşı yönəldilən və təsdiqlənən ilk ittiham olmayacaq - Demokratlar Partiyasının aparıcı senatorlarından biri sayılan, Senatın Xarici Əlaqələr Komitəsinin rəhbəri olmuş Bob Menendez də korrupsiya ilə həbsə alınıb. O, Misir və Nyu-Cersi iş adamlarından siyasi güzəştlər müqabilində, qızıl külçələr də daxil olmaqla, rüşvət aldığı üçün 11 il həbs cəzasına məhkum edilib. Beləliklə Bayden komandasının aparıcı simalarının Ukrayna üzərindən də belə oyunlar oynaması ehtimalı da ola bilər. Bu isə hər bir halda Trampın işinə yarayacaq - bir tərəfdən özünün cəmiyyətdəki imicini artıracaq, digər tərəfdən Ukrayna müharibəsində ABŞ-ın (dolayısı ilə Baydenin) maraqlarının nədən ibarət olmasının əsl mahiyyətini xalqına çatdıracaq və nəhayət, gələcək seçkilər üçün dividend qazanacaq. Ən əsası isə Tramp birmənalı qəbul edilməyən addımlarını əsaslandıracaq - burada əsas diqqət USAID ilə bağlı məsələyə yönəlməlidir.



### USAID-in Ermənistandakı korrupsiya çəmbəri...

USAID-i xatırlatmaqda məqsədimiz var. Bilindiyi kimi, Tramp hakimiyyətə "qədəm qoyduğu" ilk günlərdə imzaladığı fərmanla USAID-in layihələri dayandırılıb. Aparılan araşdırmalarda isə USAID-lə bağlı mühüm korrupsiya faktları tapılıb. Burada bir məqam xüsusilə vurğulanmalıdır - Ukrayna kimi, Ermənistan da USAID-in külli-miqdarlı vəsaitlərinə "qonaq" edilib. Ümumiyyətlə, USAID-in fəaliyyətində hər zaman "ermənipərəstlik" qırmızı xəttlə keçib. Qeyd edək ki, ötən ilin iyul ayında USAID-in rəhbəri Samanta Pauer Ermənistana səfər etmişdi. Səfər zamanı təşkilatın Ermənistanda "Amazon web service" ilə hökumət arasında əməkdaşlığı dəstəkləmək üçün 5 milyon dollar ayırdığı bildirilmişdi. S.Pauer USAID Ermənistanın informasiya texnologiyaları sektoruna daha 2,4 milyon dollar ayıracağını da elan etmişdi. USAID rəhbəri 2023-cü ildə də Ermənistana səfər edib və səfər zamanı Qarabağı könüllü tərk edən ermənilərlə görüşərək Azərbaycanın əleyhinə fikirlər səsləndirmişdi. Təşkilat bununla da kifayətlənməyib. Ötən ilin sentyabrında USAID Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıracağını elan etmişdi. Ermənistan Nazirlər Kabinetinin məlumatına görə, bu vəsaitlər "demokratik proseslər, regional əməkdaşlıq, fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi və s. kimi sahələrə yönəldiləcək"di. Başqa sözlə, bu vəsaitləri də Ukraynada olduğu kimi "qaytarılması" və "gözlə görülməsi" mümkün olmayan sahələrə yönləndiriləcək...

***P.İSMAYILOV***

# Avropa İttifaqı narahatdır...

## ABŞ Rusiyaya qarşı sanksiyaları ləğv edəcəkmi?

Tramp administrasiyasının Rusiya-Ukrayna münaqişəsinin həllinə yanaşması Avropa İttifaqını ciddi narahat edir. Çünki bir sıra Avropa ölkələri hazırda ABŞ-ın Rusiyanın maraqlarına uyğun sülh planı təqdim edəcəyini düşünür.

### Aİ diplomatları ehtiyatlanırlar

Belə bir şəraitdə Avropa İttifaqının diplomatları ABŞ-ın Rusiyaya qarşı sanksiyaları ləğv edəcəyindən ehtiyatlanırlar. "Financial Times" qəzetinin mənbələrinə istinadla yaydığı məlumata görə, avropalı diplomatlar ABŞ-ın hələ ki, Rusiyaya qarşı sanksiyaları qüvvədə saxlamaq və hətta onları gücləndirmək niyyətində olduğuna dair siqnallar alır. Lakin bu, Tramp administrasiyasının Rusiya ilə iqtisadi əməkdaşlığı yaxşılaşdırmaq məqsədlərilə ziddiyyət təşkil edir. Odur ki, Brüssel Vaşinqtondan gələn ziddiyyətli bəyanatlar səbəbindən ABŞ-ın məhdudiyyətləri aradan qaldıracağından ehtiyatlanır. "Əgər ABŞ Moskvaya qarşı məhdudiyyət tədbirlərini ləğv edərsə, Rusiya qlobal maliyyə səddindəki boşluqdan istifadə edərək bir çox sahələrdə həmişəki kimi normal fəaliyyət göstərə biləcək", - deyə nəşr vurğulayır.

Qeyd edək ki, fevralın 19-da Avropa İttifaqının daimi nümayəndələri ABŞ-ın ziddiyyətli yanaşmaları fonunda Rusiyaya qarşı sanksiyaların növbəti 16-cı paketi ilə bağlı razılığa gəliblər. Onların razılaşdığı paket daha sonra təsdiq üçün Avropa İttifaqı ölkələrinin liderlərinə göndəriləcək. "Sanksiyalar daha 13 bankı və ölkə donanmasının 73 tankerini hədəf alacaq", - deyə nəşr bildirib. Həmçinin yeni sanksiyalar paketinə Avropa İttifaqı ölkələri üçün Rusiya alüminiumundan hazırlanan bəzi məhsulların alınmasına "mərhələli" qadağa da daxil olacaq. Bəzi məlumatlara görə isə qadağa bu metaldan hazırlanan məhsul növlərinə deyil, Rusiyadan gələn ilkin alüminiuma təsir edəcək.



Bütün bunların fonunda Avropa İttifaqı Ukrayna ilə bağlı danışıqlarda fəal iştirak etmək istəyir. Bir neçə gün öncə "Veymar üçbucağı - plyus" formatında Xarici İşlər nazirliklərinin (Fransa, Polşa, əməliyyatlara tezliklə son qoyulması və problemin sülh yolu ilə həllinin tə-

### Aİ Ukrayna danışıqlarında fəal iştirak etmək niyyətindədir

Almaniya, İtaliya, İspaniya, Böyük Britaniya, Ukrayna və Avropa Komissiyası) rəhbərlərinin birgə bəyanatına əsasən, Avropa ölkələri Ukraynadakı münaqişənin həlli üçün istənilən mümkün danışıqlarda iştirak etməlidir. Bu bəyanat Ər-Riyadda ABŞ-Rusiya danışıqları ərəfəsində verilmişdi. Bəyanatda deyilirdi ki, "biz amerikalı müttəfiqlərimiz ilə Ukraynadakı münaqişənin həlli üzrə növbəti addımları müzakirə etməyi səbirsizliklə gözləyirik. Bizim ümumi məqsədimiz Ukraynanın mövqeyini gücləndirmək olmalıdır. Ukrayna və Avropa istənilən danışıqlarda iştirak etməlidir". Xarici İşlər nazirliklərinin rəhbərləri "Ukraynada ədalətli və davamlı sülhün davamlı Transatlantik təhlükəsizliyin zəruri şərti olduğunu" vurğulayıblar.

Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Tramp hələ fevralın 12-də baş tutan telefon danışığında digər məsələlərlə yanaşı, Ukraynada nizamlanma perspektivlərini müzakirə ediblər. Kremlin məlumatına görə, Tramp hərbi rəfdarı olub. Putin, öz növbəsində, münaqişənin əsas səbəblərini aradan qaldırmağın vacibliyini qeyd edib və Trampla razılaşıb ki, sülh danışıqları yolu ilə uzunmüddətli nizamlanma əldə oluna bilər. Bu barədə Rusiya liderinin mətbuat xidməti məlumat verib. ABŞ administrasiyasının rəhbəri "Truth Social" şəbəkəsində yazıb ki, Moskva və Vaşinqton Ukraynadakı münaqişənin həlli üçün dərhal danışıqlara başlayacaq.

Brüsseldə Kiyevə silah tədarükünü əlaqələndirən Qərb Təmas Qrupunun son iclasında çıxış edən Pentaqon rəhbəri Pit Heqset isə Ukraynanın 2014-cü ildə mövcud olmuş sərhədlərinə qayıtmağın "qeyri-real bir məsələ" olduğunu vurğulayıb. O, həmçinin Ukraynanın NATO-ya daxil olma ehtimalını da istisna edib. Heqset Avropaya xəbərdarlıq edib ki, Tramp administrasiyasının fikrincə, Aİ öz təhlükəsizliyinə cavabdeh olmalıdır. Tramp daha sonra Heqsetin Ukraynanın 2014-cü il sərhədlərinə qayıtmasının mümkünsüzlüyü barədə sözlərini misal çəkib.

### Marko Rubio: Ər-Riyadda Moskvaya qarşı sanksiyaların ləğvi müzakirə edilməyib

Aİ-nin narahatlığı fonunda ABŞ Dövlət katibi Marko Rubio jurnalistlərə müsahibəsində deyib ki, ABŞ və Rusiya nümayəndə heyətləri Ər-Riyadda keçirilən danışıqlarda Moskvaya qarşı sanksiyaların ləğvini və ya ərazi məsələlərini müzakirə etməyiblər: "Biz detallar, o cümlədən ərazi məsələləri üzrə danışıqlar aparmamışıq". Onun sözlərinə görə, Səudiyyə Ərəbistanında baş tutan danışıqlar Ukraynada sülh prosesinin perspektivlərinin müzakirəsinə həsr olunub.

Dövlət katibi Avropa İttifaqının Rusiyaya qarşı öz sanksiyalarının da olduğunu xatırladaraq deyib: "Biz bütün sanksiyaları aradan qaldırsaq, hərçənd bu məsələ müzakirə edilməyib, avropalılar da analoji addım atmalı olacaqlar. Bunun üçün nə vaxtsa onların hamısı ilə məsləhətləşmək lazım gələcək, lakin biz hələ o mərhələdə deyilik". Marko Rubio, həmçinin ukraynalıların Vaşinqtonun niyyətini bildiyini və Kiyevlə müntəzəm müzakirələrin aparıldığını qeyd edib.

ABŞ-ın vitse-prezidenti Cey Di Vens isə bəyan edib ki, Kiyev və Avropa ABŞ Prezidenti Donald Trampın Ukrayna münaqişəsinin nizamlanmasına nail olmaq niyyətini ciddi qəbul etməlidir.

***N.BAYRAMLI***

# Ukrayna prezident seçkilərinə gedəcək?

Ər-Riyad görüşündə ABŞ ilə Rusiya arasında müzakirə olunan məsələlərdən biri də Ukraynadakı mövcud daxili vəziyyət olub - həm Vaşinqton, həm Moskva Ukraynada tez bir zamanda yeni prezident seçkilərinin keçirilməsində maraqlıdır. Amma Ukrayna qanunvericiliyinə görə, müharibə gedən zaman ölkədə seçkilər keçirilə bilməz. Prezident Donald Tramp bununla açıq şəkildə mövqeyini bildirib - o, bəyan edib ki, Ukraynada seçkilər keçirməyin vaxtı çatıb.

"Ukraynada seçkilərin vaxtıdır. Çoxdandır ki, orada seçkilər olmayıb. Bilirsiniz, "bizdə seçki keçirilə bilməz" demək çox gözəldir. Amma artıq seçki keçirməyin vaxtıdır", - deyə Tramp vurğulayıb. O, həmçinin bildirib ki, Vladimir Zelenskinin reytinqi 4%-ə düşüb və Kiyev nizamlanma üzrə danışıqlar masasında yer almaq istəyirsə, Ukrayna seçki keçirməlidir: "Zelenskinin əhali arasındakı müsbət reytinqi cəmi 4%-ə düşüb və Ukraynadakı münaqişənin nizamlanması ilə bağlı danışıqlar masasında Kiyevə yer verilməsi üçün ölkədə mütləq yeni seçkilər keçirilməlidir".

Bu arada "RİA Novosti" agentliyinin məlumatına görə, fevralın 19-da BMT-nin Baş Assambleyasının iclasında ABŞ Ukrayna ilə bağlı Rusiya əleyhinə qətnamə layihəsinin həmmüəllifi olmayıb. Müəlliflər arasında Britaniya, Fransa, Almaniya, Kanada, İsveçrə, Polşa və Baltikyanı ölkələr var...

Trampın milli təhlükəsizlik müşaviri Maykl Uoltz isə ABŞ-ın Ukraynaya silah tədarükünün yavaşladığını bildirib.

Proseslərin belə davam etdiyi təqdirdə Ukraynada prezident seçkilərinin keçirilməsi hansı dövrə təsadüf edə bilər? Bu atəşkəs sazişindən əvvəl, yoxsa sonra baş tutacaq?

### ABŞ Ukraynaya yardımları dayandıra bilər

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ukraynaya yardımların tam dayandırılacağı durumunda bu, baş verə bilər.

"İndidən bu məsələ barədə proqnoz vermək o qədər asan deyil, çünki hadisələr sürətlə dəyişir. Lakin belə bir ehtimal özünü doğrulda bilər. Əgər Prezident Volodimir Zelenski Trampın şərtlərini yerinə yetirməkdən boyun qaçırarsa, Tramp da öz şərtlərinin üstündə təkidlə dayanarsa, ABŞ tərəfindən Ukraynaya göstərilən yardımların miqdarı azalacaq. Bildiyimiz kimi, Rusiya ilə Ukrayna arasında müharibə başladıqdan bəri ABŞ Ukraynaya həm hərbi-texniki, həm də maliyyə-iqtisadi cəhətdən külli miqdarda yardım paketləri göndərib. Təsəvvür edək ki, əgər bu yardımlar minimuma endirilərsə və ya tam dayandırılarsa, Ukrayna indikindən qat-qat ağır duruma düşəcək".

### Avropa Zelenskini ağır vəziyyətdən xilas edə bilər?

Politoloq bildirib ki, belə olan halda Ukrayna digər tərəfdaşlarından yardım almaq məcburiyyətində olacaq: "Avropa İttifaqının bəzi üzv ölkələri, hətta Böyük Britaniya və Norveçin dövlət rəhbərləri bəyan edirlər ki, onlar sona qədər Ukraynanın yanında olacaqlar və Kiyevə istədiyi dəstəyi verəcəklər. Lakin gəlin, özümüzə sual verək: Avropa ölkələrinin yardımları Ukraynanı qane edəcəkmi? Bu məsələdə Aİ, həqiqətənmi ABŞ - ı əvəz etmək iqtidarındadır? Əgər Aİ və Avropa ölkələri bu məsələdə özlərini doğrultmasalar, Ukrayna Rusiya ilə mübaribədə tab gətirə bilməyəcək. Qeyd etdiyim kimi, Ukrayna daha dərin uçuruma düşəcək. Avropanın aparıcı ölkələri Ukraynaya hərbi-texniki və maliyyə yardımlarının sayını artırmağa çalışacaqlar. Amma bir məqamı da nəzərə alaq ki, hazırda Aİ-nin bir sıra üzv ölkələri çox ciddi və ağır iqtisadi çətinliklərlə üzləşiblər. Bu da həmin ölkələrin daxilində mürəkkəb siyasi proseslərin inkişafına gətirib çıxarıb, demək olar ki, Almaniya və Fransa siyasi böhranla üzüzə qalıb".



### Zelenski bu halda istefa verə bilər

"Aİ-nin bəzi ölkələri, hətta Qərbi Avropadakı müəyyən dairələr Ukraynaya maliyyə yardımının davam etməsindən məmnun deyillər. Əksinə, onlar buna qarşı çıxmağa başlayıblar. Əgər Aİ-nin yardımları tam dayanarsa, Zelenski ölkəsinin çox acınacaqlı vəziyyətə düşdüyünü görüb istefa vermək məcburiyyətində qalacaq," - deyə İ.Vəlizadə vurğulayıb.

***Yunis ABDULLAYEV***

# QHT sektoruna nəzarət gücləndirilir...

## Gürcüstan Parlamenti "Qrantlar haqqında" qanunu sərtləşdirir

Qonşu və dost Gürcüstanın hazırkı hakimiyyəti milli maraqların qorunması, ölkəyə xarici təsirlərin qarşısının alınması məqsədilə qətiyyətli siyasi iradə ortaya qoyur. Təkcə ötən il Qərbin və daxildəki birləşmiş müxalifətin ciddi təzyiq cəhdlərinə baxmayaraq, ölkə parlamenti hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının təşəbbüsü əsasında xarici təsirlərə nəzarətin gücləndirilməsini və gürcü xalqının milli ləyaqətinin, ailə dəyərlərinin qorunmasını hədəfləyən iki mühüm qanun qəbul etdi. Hazırda isə oxşar məzmunlu daha bir qanun layihəsi parlamentin müzakirələrinə çıxarılıb. Söhbət "Qrantlar haqqında" qanuna nəzərdə tutulan dəyişikliklərin müzakirələrindən gedir. Hakim komanda sözügedən qanunun sərtləşdirilməsinin zəruriliyi mövqeyindən çıxış edir ki, bu da səbəbsiz deyil.

### ABŞ-ın FARA qanunu Gürcüstanda

Hər bir ölkədə vətəndaş cəmiyyəti təsisatlarının müstəsna rolu barədə geniş müzakirələr açmağa lüzum yoxdur. Uğurlu dövlət modelini ictimai sektorun fəallığından və təşəbbüslərindən kənarda təsəvvür etmək mümkün deyil. Məhz xüsusi önəmi nəzərə almaqla vətəndaş cəmiyyəti təsisatları milli maraqlarla ziddiyyət təşkil edən, hətta bu maraqlara təhdidlər yaradan kənar təsirlərdən qorunmalıdır. Bu məsuliyyət isə bilavasitə dövlətin üzərinə düşür. Geosiyasi reallıqları nəzərə alan rəsmi Tbilisi də məhz belə yanaşmalardan çıxış etməklə "Qrantlar haqqında" qanunu sərtləşdirməyə qərar verib.

Bu günlərdə Gürcüstan parlamenti qeyri-hökumət təşkilatlarının (QHT) dövlət qrantları almaq imkanını nəzərdə tutan "Qrantlar haqqında" qanuna dəyişiklikləri sürətləndirilmiş qaydada nəzərdən keçirib və üçüncü oxunuşda təsdiqləyib. Dəyişikliklərin qəbulunu qanunverici orqanın 80 üzvü dəstəkləyib.

Layihəyə əsasən, qrantların verilməsinə yeni qurum - Dövlət Qrantlarının İdarə Edilməsi Agentliyi cavabdeh olacaq. Yalnız fəaliyyəti ölkənin inkişaf prioritetlərinə uyğun gələn təşkilatlar maliyyə alacaqlar. Artıq 2025-ci ilin dövlət büdcəsindən bu məqsədlə 20 milyon lari ayrılıb.

Parlamentdə aparılan müzakirələrdə Amerika Birləşmiş Ştatlarında (ABŞ) uzun illərdir ki qüvvədə olan oxşar qanuna istinad olunub. Qeyd edək ki, ABŞ-da "Xarici Agentlərin Qeydiyyatı Aktı" (FARA) adlanan qanuna əsasən, xarici güclərin maraqlarını hansısa bir formada güdən şəxslər xarici hökumətlə əlaqəli fəaliyyətləri və maliyyə barədə məlumatları açıqlamalıdırlar. Qanunun məqsədi hakimiyyətin və Amerika xalqının belə şəxslərin bəyanatlarına, hərəkətlərinə qiymət verməsini asanlaşdırmaqdır.



### Maliyyələşmə mexanizmi dəyişir

Bəs indiki həssas dönəmdə Gürcüstanda oxşar məzmunlu qanunun sərtləşdirilməsi hansı vazkeçilməz amillərlə şərtlənir? Sualın cavabı konkretdir: Hakim komanda ölkədə qeyri-hökumət təşkilatlarının sayının hədsiz dərəcədə artması və onların böyük əksəriyyətinin xaricdən maliyyə asılılığında olması reallığından çıxış edir. 2024-cü ilin məlumatına əsasən, Gürcüstanda aktiv fəaliyyət göstərən 25 min qeyri-hökumət təşkilatı var. Gürcüstanın 3,7 milyon əhalisi olduğunu nəzərə alsaq, bu, dünyada adambaşına düşən ən yüksək göstəricilərdən biridir, yəni hər 148 Gürcüstan vətəndaşına, demək olar ki, bir QHT düşür. Narahatlıq yaradan ən mühüm məqam ondan ibarətdir ki, ölkədə qeydiyyata alınan QHT-lərin təxminən 90 faizi xaricdən maliyyələşir.

Aydın məsələdir ki, pulu verən onu alana istədiyi mahnını sifariş verir. Gürcüstan hakimiyyəti o mövqedən çıxış edir ki, siyasi mənada sifarişi verilən "mahnılar" ölkənin milli təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Bu narahatlıq əbəs deyil. İndiyədək Gürcüstanda yerli QHT-lərin xaricdən ölkəyə ixrac edilən müxtəlif "rəngli inqilab" ssenarilərində yer aldıqlarına dair çoxsaylı faktlar sadalamaq mümkündür. Gürcüstan QHT-larının Qərb donorları arasında Avropa İttifaqı, ABŞ-ın keçmiş administrasiyası, Soros Fondu kimi müxtəlif qurumlar var. İndiyədək 100-dən çox ölkədə şəbəkə qurmağa nail olan və D.Trampın bir qədər bundan əvvəl ifşa etdiyi ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) burada "aktivliyini" xüsusi qeyd edə bilərik. Gürcüstanın qeyri-hökumət təşkilatları 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində sözügedən qurumdan 41 milyon dollardan çox vəsait alıblar. Etiraf olunur ki, bu pullar Gürcüstanda QHT-lər üzərindən daxili sabitliyin pozulmasına yönəldilib.

Belə kədərli reallıq fonunda Gürcüstan hakimiyyətinin hərəkətə keçməsi tam başadüşüləndir. Dövlət gec də olsa ictimai sektora nəzarəti gücləndirməkdə qərarlıdır. Həm də bu, yalnız qadağa və məhdudiyyətlərlə edilməyəcək. Baş nazir İrakli Kobaxidze bildirib ki, Gürcüstanda qeyri-hökumət təşkilatları dövlət büdcəsindən xarici donorlardan aldıqları maliyyədən bir-iki dəfə çox vəsait alacaqlar.

*Mübariz ABDULLAYEV*

# Dünyanın ən böyük "düşməni"...

## Tramp xəbərdarlıq etdi: ...dünya məhv olacaq

### Qlobal nüvə arsenalı hansı vəziyyətdədir?

**"Sivilizasiyanın inkişaf səviyyəsi Yer kürəsini dağıtmağa yetdiyi zaman hər şeyin sonu gələcək". Bu deyim məşhur bir aforizm olsa da, bu günün reallığı ilə tam səsləşir. Bəli, təəssüf ki, bəşəriyyət yaşadığımız külli-kainatı yerlə-yeksan edəcək gücə sahibdir. Bunun üçün isə yalnız bir "düymə"yə sıxmaq bəs edir...**

**Söhbət, yarandığı gündən insanlıq əleyhinə ən qorxunc silah sayılan nüvə silahından gedir. Maraqlıdır ki, bu silah dünyanın kiçik və böyük, güclü və ya zəif, iqtisadiyyatı irəlidə və ya geridə olan dövləti də fərqləndirmir - bu silahın qarşısında hər kəs, hər şey acizdir...**

### Nüvədən imtina yolları...

Nüvə silahından 1945-ci ildə iki dəfə istifadə olunub. Yaponiyanın Naqasaki və Xirosima şəhərlərinin bombardman edilməsindən sonra bu qorxunc silahdan istifadə olunmasa da, yeni bir nüvə təhdidinin yaranması bütövlükdə yer kürəsinin sonu demək olar. Çünki, əgər ötən əsrin əvvəlində yalnız bir və ya iki ölkənin nüvə silahı var idisə, bu gün dünyanın əksər dövlətləri bu dəhşət saçan ölüm silahına malikdir.

Ümumiyyətlə, nüvə silahından imtina məsələsi hər zaman beynəlxalq müstəvidə aktuallıq daşıyıb - hələ ötən əsrin ortalarında bu silaha malik iki ölkə, ABŞ və keçmiş SSRİ tərəfindən 1953-cü ildə atmosferdə nüvə sınağına moratorium qoyulmuşdu. Lakin bu qadağa keçmiş SSRİ tərəfindən 1961-ci, ABŞ tərəfindən 1962-ci ildə pozuldu. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Silahsızlanma Komissiyası atmosfer, kosmos və su altında nüvə sınağını qadağan edən bir müqavilə hazırlayıb. Müqavilə ABŞ və keçmiş SSRİ də daxil olmaqla BMT-yə üzv olan 100-dən çox dövlət tərəfindən imzalanıb. 1968-ci ildə ABŞ, Rusiya, Fransa, İngiltərə, Çin istisna olmaqla bütün ölkələrə nüvə silahına sahib olmağı qadağan edən başqa bir saziş bağlanıb. 1990-cı illərin ortalarında sazişə 181 ölkə qoşulub, 1995-ci ildə isə vaxtı qeyri-müəyyən müddətə uzadılıb.

1985-ci ildə isə Hindistanda qəbul edilmiş Dehli Bəyannaməsi nüvə silahlanması rəqabətinin dayandırılması və beynəlxalq səviyyədə nüvə silahı cəbbəxanalarının tədricən aradan qaldırılması haqqında çağırışa çevrildi. Dehli Bəyannaməsi ilk olaraq Hindistan, Argentina, Yunanıstan, Meksika, Tanzaniya və İsveç hökumətləri tərəfindən imzalanıb. Bəyannamənin imzalanmasına səbəb hərbi konfliktlər zamanı ətraf mühitə vurulan zərər, müharibələrin bitməsindən çox illər sonra da ekosistemin vəziyyətinə, təbii sərvətlərə, hətta bir nəslin həyatına olan mənfi təsir haqqında hər kəsi məlumatlandırmaqdır.

### Nüvə arsenalının 90 faizi iki dövlətin payına düşür...

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp nüvə silahından istifadəni və nüvə gücləri klubunun genişləndirilməsini qəbuledilməz hesab edir. Bu barədə o, Mayamidə keçirilən investisiya forumunda bildirib.

"Əgər bu baş verərsə, dünya məhv olacaq", - deyə ABŞ lideri nüvə silahının mümkün istifadəsi barədə danışarkən deyib. Tramp vurğulayıb ki, ABŞ başqa ölkələrin də nüvə silahı əldə etməsinə icazə verə bilməz.

Bəs, görəsən dünyada hazırda neçə nüvə başlığı mövcuddur? Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu (SIPRI) 2024-cü ildə açıqladığı son hesabatda ölkələrin nüvə qüvvələrinə dair illik sorğusunu açıqlayıb. İnstitutun ekspertləri belə nəticəyə gəliblər ki, bütün nüvə ölkələri 2023-cü ildə öz arsenallarını genişləndiriblər. Bu məsələdə ən fəal Çin və KXDR olub. Ekspertlər qeyd edirlər ki, son bir il ərzində bütün doqquz nüvə dövləti - 5 rəsmi (Böyük Britaniya, Çin, Rusiya, ABŞ, Fransa) və dörd qeyri-rəsmi (İsrail, Hindistan, Şimali Koreya, Pakistan) yeni nüvə silahlarına sahib olublar.

Dünyadakı bütün nüvə silahlarının təxminən 90 faizi Rusiya və ABŞ-ın payına düşür. Ötən il ərzində heç bir əsaslı dəyişiklik baş verməyib - onların nüvə qüvvələrinin vəziyyəti sabit qalır. İstisna yalnız, Rusiyanın 36 əlavə döyüş başlığı əldə etməsidir.

SIPRI-nin hesablamalarına görə, Çin nüvə qüvvələrini əhəmiyyətli dərəcədə artırıb: bu say 2023-cü ildə 410 idisə, 2024-cü ildə 500-ə qədər artıb. Analitiklər proqnozlaşdırır ki, bu, artmaqda davam edəcək - qüvvələrin necə tənzimlənməsindən asılı olmayaraq, onilliyin sonuna qədər Çin, Rusiya və ABŞ eyni sayda qitələrarası ballistik raketlərə (ICBM) sahib ola bilərlər. Baxmayaraq ki, Çin hələ də bu iki ölkədən daha az nüvə başlığına sahib olacaq".

Böyük Britaniya isə 2023-cü ildə ehtiyatlarını artırmayıb, lakin bu, hələ də planlarının bir hissəsidir - yaxın illərdə ölkənin döyüş başlıqlarının sayı 225-dən 260-a yüksələ bilər. Fransa isə üçüncü nəsil nüvə sualtı qayıqlarının təchizatını davam etdirir.



### Hindistanın hədəfi Pekindir...

Hindistan və Pakistan da ötən il ərzində arsenallarını bir qədər genişləndiriblər. Fərqi isə ondadır ki, İslamabadın əsas potensial zərbə hədəfi kimi Hindistan nəzərdə tutulsa da, ikinci daha çox Çindəki hədəfləri vura biləcək uzaq mənzilli sistemlərin istahsalına diqqət yetirməyə başlayıb.

KXDR da özünün milli təhlükəsizlik sistemində mərkəzi element saydığı nüvə arsenalını artırıb. SIPRI-nin hesabatına görə, Pxenyanın 50 döyüş başlığı və bu sayı 90-a çatdırmaq üçün kifayət qədər "xammalı" var.

Nüvə silahına malik olduğunu etiraf etməyən İsrail də öz imkanlarını, ilk növbədə, Dimona nüvə mərkəzində plutonium istehsalında təkmilləşdirir.

Beynəlxalq ekspertlərin fikrincə, 2023-cü ildə Ukrayna və Qəzzada baş verən münaqişələr nüvə diplomatiyasını daha da zəiflədib. Rusiya START Müqaviləsində iştirakını dayandırdı və sənədlə bağlı məlumat mübadiləsi tormozlandı. Moskva daha sonra nüvə sınaqlarını qadağan edən müqavilənin ratifikasiyasından geri çəkildi. İran və ABŞ isə 2023-cü ilin yayında nüvə sazişi ilə bağlı qeyri-rəsmi razılığa gəlsə də, gərginlik azalmadı - HƏMAS-ın İsrailə hücumu bu prosesi daha da qızışdırdı.

### 30 il öncə dünyanın III nüvə dövləti idi...

Qeyd edək ki, 30 il öncə dünyanın nüvə xəritəsi heç də indiki kimi deyildi - bu gün öz təhlükəsizlik qarantını qapılarda axtaran Ukrayna SSRİ-nin dağılmasından sonra dünyanın III nüvə dövlətinə çevrilmişdi. Bu amili özü üçün böyük təhlükə sayan böyük dövlətlər, xüsusilə də, ABŞ yeni "Avropa qrandı"nın yaranmaması üçün ilkin mərhələdə önləm almaq "məcburiyyətində qalmışdı". Slavyan kökənli olması, Polşa ilə yaxınlığı, həmin vaxt sosialist şinelindən hələ tam xilas olmamış ölkələr ilə münasibətləri Ukraynanı Vaşinqton üçün baş ağrısına çevirə bilərdi. 1991-ci ildə SSRİ və ABŞ tarixdə ilk Strateji Silahların Azaldılması Müqaviləsini imzalasa da sənəd ratifikasiya olunmadı - SSRİ-nin dağılması ilə İttifaqın nüvə potensialı yeni dövlətlərin - Belarus, Qazaxıstan, Rusiya və Ukraynanın balansına keçdi. Hətta 1993-cü ildə Ukrayna parlamenti prezident Kravçuka müraciətlərində nüvə silahından imtina etməməyi xahiş edirdilər. Onlar ən azı 20 il nüvə silahına sahib olmanın vacbiliyini önə sürürdülər. Kiyevin nüvə arsenalına isə SS-19 və SS-24 qitələrarası ballistik raketləri olan 176 qurğu, iki minə yaxın strateji nüvə başlığı, iki mindən çox taktiki nüvə silahı, həmçinin nüvə silahı daşıya bilən 44 strateji bombardmançı təyyarə daxil idi.

Amma çox keçmədi ki, yenə də böyük güclərin razılaşması ilə Ukrayna "nüvəsizləşdirildi". 1992-ci ilin mayında ABŞ, Rusiya, Ukrayna, Belarusiya və Qazaxıstan Lissabon sazişlərini imzaladılar ki, bu sazişə əsasən, Ukrayna nüvə silahı olmayan dövlət kimi NPT-yə tezliklə qoşulmalı idi - amma Ukrayna raketləri verməyə tələsmirdi. 1993-cü ilin noyabrında NATO nüvə tərksilah prosesinin qarşısını almağa davam edərsə, Ukraynanı Sülh Naminə Tərəfdaşlıq proqramından kənarlaşdırmaqla hədələdi. Vaşinqton Ukrayna ilə münasibətləri inkişaf etdirmək üçün şərtin nə olduğunu açıqladı - Qərb dünyasından qovulma təhlükəsi öz rolunu oynadı. 1994-cü il yanvarın 14-də Rusiya, ABŞ və Ukrayna prezidentləri Boris Yeltsin, Bill Klinton və Leonid Kravçuk nüvə başlıqlarının Ukraynadan Rusiyaya verilməsi proseduru, təzminat və kompensasiyalar haqqında üçtərəfli bəyanat imzaladılar. Ukrayna üçün təhlükəsizlik zəmanətləri alındı. 1994-cü il fevralın 8-də Ukrayna NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramının çərçivə sənədini imzaladı. Yekun sənədə isə 1994-cü il dekabrın 5-də Budapeştdə imza atıldı - orada Rusiya, Ukrayna, Böyük Britaniya və ABŞ nümayəndələrinin imzaladığı memoranduma uyğun olaraq, böyük dövlətlər Ukraynanın nüvə silahından imtinası müqabilində onun suverenliyinə və müstəqilliyinə hörmət etmək, təhdidlərdən çəkinmək öhdəliklərini təsdiqlədilər. Budapeşt Memorandumunun elementlərinə təsir edən vəziyyət yaranarsa, onu imzalayanlar məsləhətləşmələr aparmağı öhdələrinə götürdülər...

*P.İSMAYILOV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Şənbə üçün nəzm





**Səddam Laçın**

Göz yaşını qurutmağın yanında
Bir dənizi qurutmağa nə var ki
Dərd eləmə, qurban olum dərdinə
Unut məni, unutmağa nə var ki

Mən ki sənin sevmədiyin
adamam
Elədirsə, kimin dərdin çəkirsən?
Get tarının, mizrabanın
dərdin çək
Niyə gəlib simin
dərdin çəkirsən?

Axtardığın mən olsam da, əzizim
İtirdiyin mən deyiləm, bilirsən...
Mən olsamda, itirdiyim adamı
Axtarmaram, sən deyiləm,
bilirsən...

Bir baxçada gül olsan da sonunda
Ləçək-ləçək qurudulan qadınsan
Unut məni, unutmağa nə var ki?
Sən özün də unudulan qadınsan
***
Mən səni neynirəm ki...
Sən olsan da sevirəm,
olmasan da sevirəm
Ey dodağı yasəmən,
yanaqları qızılgül
Qorxma payız gələndə
Sən solsan da sevirəm,
solmasan da sevirəm.

Sən sev deyə sevmirəm...
Mən səbəbsiz sevirəm,
qarşılıqsız sevirəm
Sizin sevgiləriniz, bu gün olur,
sabah yox.

Mən sevəndə bir ömür
ayrılıqsız sevirəm.
Mən səni neynirəm ki...
Sən olmayan günlərin
Hər günü bir şeirdi, hər
günü bir qəzəldi
Səndən gözəl olmasın,
sənsizlikdə gözəldi
***
Sən qəribə qadınsan
Nəfəsin od kimidir
Buz kimi görsənirsən
Sən öz dərdi bir yana
Hamının dərdin çəkən
Qız kimi görsənirsən

Sən qəribə qadınsan..
Gözlərində həqiqət
Dilində yalan yatır
Ürəyində məhəbbət
Qoynunda ilan yatır

Sən qəribə qadınsan
Yalandan dilin küsüb
Dodaqların öpüşmür.
Gözlərin açıq qalıb
Kirpiklərin görüşmür
Özünü danlamaqla,
Ağlamaqla ötüşmür.

Sən qəribə qadınsan
Əməlin arzularla
Bir gün üst-üstə düşmür.

# Yolumuzu çəkənlər...

## Avtomobil yolları işçilərinin bayramıdır

Ölkənin inkişafında əhəmiyyət kəsb edən islahatlardan biri də yol infrastrukturunun qurulmasıdır. Yolların çəkilməsi, insanlar üçün rahat gediş-gəlişin təmin edilməsi həm də bir mədəniyyət nümunəsidir. Əbəs deyil ki, xarici ölkələrə səfərlərimiz zamanı ilk olaraq həmin ölkənin yollarına diqqət yetiririk. Hətta bəzi səyyahlar ölkənin mədəni və iqtisadi inkişafını yollarına görə təxmin edirlər.

Fevralın 22-si avtomobil yolları işçilərinin peşə bayramıdır. Bu gün Prezident İlham Əliyevin 2008-ci il fevralın 20-də imzaladığı “Azərbaycan Respublikası avtomobil yol işçilərinin peşə bayramının təsis edilməsi haqqında” sərəncamından sonra hər il bu tarix avtomobil yolları işçilərinin peşə bayramı kimi qeyd olunur.



Ölkəmizdə yol şəbəkəsinin inkişafı 19-cu əsrin ortalarından başlayıb. İlk avtomobillər isə ölkəmizə 20-ci əsrin əvvəlində gətirilib. Avtomobillərin sayının çoxalması şose yollarının tikilməsinə təkan verdi. 1918-ci ildə birinci yol tikintisi üzrə təşkilat yaradılıb. Təşkilatın 15 yük, 12 yolbasan və 4 qreyder maşını var idi.

Ölkə başçısının 2017-ci il 18 oktyabr tarixli 1638 nömrəli fərmanına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) yaradılıb. Birinci texniki dərəcəli avtomobil yollarının uzunluğu 2003-cü ildə 115 km təşkil edirdisə, hazırda artaraq 935.5 km olub.

AAYDA ölkənin ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının, körpülərin, tunellərin və yol qurğularının, həmçinin Bakı şəhərinin avtomobil yollarının, prospektlərin və küçələrin vəziyyətinə nəzarətin həyata keçirilməsi, qorunub-saxlanılması, layihələndirilməsi, tikilməsi, cari, orta və əsaslı təmiri və bərpası işlərini yerinə yetirir. Agentliyin balansında ümumi istifadədə olan 17755 km uzunluqda avtomobil yolu var ki, bunun da 4538 km-i respublika əhəmiyyətli, 13217 km-i isə yerli əhəmiyyətli avtomobil yollarından ibarətdir.

Prezident İlham Əliyevin tapşırığına əsasən, agentlik tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrinin icrası uğurla davam etdirilib. Tikintisi aparılan uzunluğu 66,4 kilometr təşkil edən 39 avtomobil tunelindən, uzunluğu 47,9 kilometr təşkil edən 18 ədədində qazma işləri başa çatdırılıb.

Artıq 17-ci ildir ki, peşə bayramını qeyd edən avtomobil yolları işçiləri hazırda ölkəmizdə gedən sosial-iqtisadi inkişafına dəstək olmaqla Azərbaycanda yol infrastrukturunun inkişafında mühüm rol oynayırlar. İndi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri məhz yol infrastrukturunun müasir standartlara cavab verərək yenidən qurulmasıdır. Məlumdur ki, avtomobil yol işçiləri bir sıra beynəlxalq əhəmiyyətli yolların çəkilməsində də böyük əmək sərgiləyir.

Ölkənin avtomobil yolları və yol infrastrukturunun müasir səviyyədə yenidən qurulmasında əmək sərf edən yol işçilərini təbrik edir, onlara bu şərəfli fəaliyyətlərində uğurlar diləyirik.

***Yeganə BAYRAMOVA***

**İdman**

## Azərbaycanın idman gimnastı Dünya Kubokunda finala yüksəlib




Azərbaycanın idman gimnastı Nikita Simonov Almaniyanın Kotbus şəhərində keçirilən Dünya Kubokunda finala yüksəlib.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, idmançı halqalarla hərəkətlərdə yüksək nəticə göstərərək həlledici mərhələyə vəsiqə qazanıb.

Qeyd edək ki, ötən gün start götürən yarışa fevralın 23-də yekun vurulacaq.

## Daha dörd boksçumuz beynəlxalq turnirin yarımfinalına vəsiqə qazanıb

Rumıniyada gənc boksçular arasında “Drakula Open” beynəlxalq turnirində 1/4 final mərhələsinin görüşləri keçirilib.

Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan millisinin daha 4 idmançısı qələbə qazanaraq yarımfinala vəsiqə qazanıb.

Yığma üzvlərindən Zidan Hümbətov (54 kiloqram) Roman Spakla (Moldova) qarşılaşıb. O, rəqibinə ikinci raundda tam üstünlüklə qalib gəlib. Hümbətov yarımfinalda Daniel Turcanla (Moldova) qüvvəsini sınayacaq.

Sübhan Babayev (57 kiloqram) Vasileios Vasileidası (Yunanıstan) mübarizədən kənarlaşdırıb. Təmsilçimiz 4:1 (29:28, 29:28, 29:28, 29:28, 28:29) hesabı ilə qələbə qazanıb. O, növbəti döyüşündə Maksim Çekinlə (Ukrayna) qarşılaşacaq.

Mircəlal Mirağayev (80 kiloqram) Alexandru Şurtdan (Rumıniya) üstün olub. Boksçu görüşün taleyini ilk raundda həll edib. Tam üstünlüklə qalib gələn Mirağayev finala gedən yolda George Balanla (Rumıniya) münasibətinə aydınlıq gətirəcək.

Məhəmməd Cəfərov (+92 kiloqram) da turnirə qələbə ilə başlayıb. O, ilk raundda Razvan Çiforu (Rumıniya) tam üstünlüklə məğlub edib. Təmsilçimiz növbəti görüşündə ukraynalı Volodimir Derkaçla gücünü yoxlayacaq.




Yarımfinala yüksələn Azərbaycan boksçuları özləri üçün azı bürünc medalı da təmin ediblər.

Qeyd edək ki, “Drakula Open”də final döyüşləri fevralın 23-də olacaq.

## Atletimiz Türkiyədə gümüş medal qazanıb



Azərbaycan atleti Yekaterina Sarıyeva Türkiyənin İstanbul şəhərində keçirilmiş “Ruhi Sarıalp tullanmalar kuboku”nda gümüş medal qazanıb.

Azərbaycan Atletika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, idmançı qadınlar arasında üçtəkanla tullanma növü üzrə qüvvəsini sınayıb.

O, 13.38 metr nəticə ilə fəxri kürsünün ikinci pilləsinə qalxıb.

# Beyin iltihabı...

## Ensefalitlə necə mübarizə aparaq?

Xalq arasında beyin iltihabı və ya beyin infeksiyası olaraq tanınan ensefalit ölümlə nəticələnə bilən ciddi bir xəstəlikdir. Xəstəliyin yaranma səbəbləri müxtəlif olsa da, nadir yoluxucu xəstəlikdir. Ensefalit hər yaşda olan insanlarda baş verə bilər və adətən buna viruslar səbəb olur. Ona görə də, immunitet sisteminin zəifləməsi və gigiyena şəraitinin pisləşməsi ensefalitin yaranmasına şərait yaradır.

Xəstəlik müalicə edilmədikdə beyinə təsirləri zamanla daha da pisləşə bilər. Beyin funksiyalarının zamanla pisləşməsi də gözlənilən əlamətlər sırasındadır. Buna görə də xəstəlik diaqnozu qoyulduqdan sonra müalicə planı müəyyən edilməli və mümkün qədər tez başlamalıdır. Erkən müalicə olunarsa, xəstənin sağlamlığını bərpa etmək mümkün ola bilər.

Yeri gəlmişkən, 22 fevral Ümumdünya Ensefalitlə Mübarizə Günüdür. Bu gün xəstəliyinin ölümcül təhlükəsi barədə maarifləndirmə və mümkün qədər yeni halların qarşısını almaq üçün 2013-cü ildə Ensefalit Cəmiyyətinin təşəbbüsü ilə təsis edilib.

### Ensefalit nədir?

Beynin iltihabı tibbdə ensefalit adlanır. Viruslar, bakteriya, göbələklər nəticəsində yaranan beynin aktiv toxumalarının iltihabı kimi müəyyən edilir. İltihab beynin şişməsinə səbəb olur və buna görə bir çox simptom meydana gəlir. Ensefalit hər yaşda görünə bilən bir xəstəlikdir. Ancaq araşdırmalar sübut edir ki, xəstəlik gənclərdə daha tez-tez baş verir.

### Meningitlə qarışdırmaq olmaz...

Ensefaliti beyin qişasının iltihabı olan meningitlə qarışdırmaq olmaz. Çünki meningitdə beyin qişasında iltihab olur, ensefalitdə isə iltihabın inkişaf etdiyi sahə beyin toxumasıdır. Ensefalitin erkən diaqnozu və müalicəsi xəstəliyin insana təsirində əsas rol oynayır. Bu səbəbdən xəstəliyin əlamətləri barədə məlumatlı olmaq və əlamətlər müşahidə olunarsa, dərhal müayinədən keçmək faydalıdır.



Beyin iltihabının simptomları bəzən qızdırma və baş ağrısı kimi soyuqdəymə simptomlarına bənzəyir.

### Xəstəliyin əlamətləri hansılardır?

Daha ciddi simptomlar sonrakı dövrlərdə baş verir. Fiziki və nevroloji əlamətlər xəstəliyin xarakterik əlamətləri arasındadır.

### Müalicə üsulları

Ensefalitin müalicəsinin ən təsirli üsulu əsas səbəbi mümkün qədər tez aşkar etmək və müalicə etməkdir. Beyinə təsir edən viral infeksiyaların müalicəsi üçün xəstəyə antiviral dərmanlar verilməlidir. Antibiotiklər əsas bakterial infeksiyaları müalicə etmək üçün istifadə olunur. Steroidlər, venadaxili antikorlar və ya plazma mübadiləsi kimi immunoterapiya bəzi növ ensefaliti müalicə etmək üçün istifadə edilə bilər.

Baş vermiş və ya baş verə biləcək qıcolmaların qarşısını almaq üçün xəstəyə müəyyən dərmanlar verilə bilər. Tutmaların qarşısını almaq üçün istifadə edilən dərmanlar müsbət istiqamətdə təsir göstərmirsə, ketogenik pəhrizlərdən istifadə edilə bilər. Virus və bakteriyaların yayılmasının qarşısını almaq üçün gigiyena qaydalarına diqqət yetirmək də faydalı olacaq.

Sağlam həyat sürmək və xəstəliklərdən qorunmaq istəyirsinizsə, ensefalit əlamətlərindən şübhələndiyiniz zaman ən yaxın səhiyyə müəssisəsinə müraciət edə bilərsiniz. Erkən diaqnoz və müalicə sayəsində sağlamlığın bərpası daha asandır.

***Yeganə***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4642
Sifariş: 398
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova